43_27 IYUl-QARA.qxd 11/13/2025 9:07 PM Page 1

UNİKAL

№43 (2273) 14 noyabr 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az



# Azərbaycanda məmur oliqarxiyasına həlledici zərbə



Səh.8

## Fuad Nəcəflinin işdən çıxarılmasının pərdəarxası

*Noyabrın 12-də Fuad Nəcəfli Prezidentin Naxçıvan Muxtar Respublikasındakı səlahiyyətli nümayəndəsi vəzifəsindən azad olunub. O, ölkə başçısının 2022-ci ilin oktyabrında imzaladığı sərəncamla həmin vəzifəyə təyin edilmişdi. Bəs F.Nəcəflinin cəmi 3 il sonra sözügedən postdan kənarlaşdırılmasının səbəbi nədir? "Unikal"ın əldə etdiyi məlumata görə, Fuad Nəcəfli Naxçıvanda Dövlət Proqramı layihəsini gecikdirdiyinə görə işdən çıxarılıb. Lakin F.Nəcəflinin vəzifədən kənarlaşdırılmasının başqa səbəblərinin də olduğu istisna edilmir. Mövzu ilə bağlı "Yeni Sabah"a danışan və əslən Naxçıvandan olan deputat Fazil Mustafa bildirib ki, bu addımın arxasında Nəcəflinin fəaliyyətindən narazılıq dayanır: "Ölkə Prezidenti öz səlahiyyətinə uyğun belə bir qərar veribsə, deməli, Fuad Nəcəflinin fəaliyyəti onu qane etməyib. Adətən, işdən çıxarılan...*

Səh.5

## "Yerlərdə olan rəhbərlər bəzən insanları dövlətdən narazı salırdılar"



*Milli Məclisin deputatı Azər Badamov "Unikal"a müsahibə verib. O, Prezident İlham Əliyevin Naxçıvanda Prezidentin yeni səlahiyyətli nümayəndəsini və bir sıra rayonların icra hakimiyyətlərinə təyin olunan başçıları qəbul etməsindən, onlara verilən tapşırıqlardan hansı nəticə çıxarmalı olduğundan...*

Səh.4

## Samir Nuriyev Prezidentin Naxçıvandakı yeni nümayəndəsini kollektivə təqdim etdi



*Noyabrın 13-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyev Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi vəzifəsinə təyin olunmuş Ceyhun Ramiz oğlu Cəlilovu muxtar respublikanın ictimaiyyətinə təqdim edib.*

Səh.3

## Sahil Babayev yenidən tənqid hədəfində



*Gələn il Azərbaycan kinosu pulsuz qalacaq. Belə ki, növbəti ilin büdcəsində Azərbaycan Respublikası Kino Agentliyinə vəsait ayrılması nəzərdə tutulmayıb. Belə ki, Milli Məclisin Mədəniyyət komitəsinin sədri, deputat Polad Bülbüloğlu 2026-cı il üçün kino sahəsinə pul ayrılmadığını bildirib.*

Səh.7

43_27 IYUl-QARA.qxd 11/13/2025 9:10 PM Page 2



# Qonşusu Könül Kərimovadan üzr istədi



***"Övladın öz yeri, nəvə başqa duyğudur. Onu yaşayanlar bilir. Dillə ifadə edə bilmirəm".***

Axşam.az xəbər verir ki, bu sözləri Əməkdar artist Könül Kərimova "Qonaqcanlı" verilişində deyib. Müğənni oğlu Rəşadla bağlı arzusundan danışıb. O bildirib ki, nəvəsi olsa, ona öz adını qoyacaq: "Ən böyük arzum oğlum Rəşadın qız övladı dünyaya gəlsin və ona Könül adı qoyum. Bizdə hisslərimə, arzuma övladlarım böyük hörmət və dəyərlə yanaşır. Onlar tərəddüd etməzlər. Onlar da bunu düşünür, amma içlərində saxlayırlar".

Proqram zamanı K.Kərimovaya qonşusu tərəfindən məktub gəlib. O, müğənnidən illər əvvəl etdiyi hərəkətə görə üzr istəyib. Belə ki, qonşusu illər əvvəl Novruz bayramında onların qapısına papaq atdığını, amma açan olmadığını bildirib. İnanmayan qonşu ifaçının evinin pəncərəsini kartof yağışına tutub. O, bu hərəkətinə görə məktubda K.Kərimovadan üzr istəyib.

# Kukla Teatrında nə baş verir? - Rejissordan qalmaqallı açıqlama



***"Dünənki məlum paylaşımım, uzun müddətdir davam edən mənəvi terrora, şəxsimə və həyat yoldaşım Rəşad Əhmədzadəyə qarşı edilən haqsızlıqlara üstüörtülü etirazım səs-küyə səbəb oldu. Onlarla dəstək zəngi, mesaj və rəyi aldım. Bəli, haqlı-haqsız iradlar, sosial platformalarda narahatlıqlar və bundan doğan müxtəlif fikirləri də gördüm".***

Bu sözləri Azərbaycan Dövlət Kukla Teatrının direktoru Rəşad Əhmədzadənin rejissor xanımı Səidə Haqverdiyeva sosial şəbəkədə yazıb. O, ötən gün açıqladığı boşanma xəbərinə aydınlıq gətirib.

O bildirib ki, həyat yoldaşından boşanmağa onu vadar edən səbəblər var: "Hesab edirəm ki, bu məsələ barəsində geniş şərhə, açıq qalan suallara cavaba böyük ehtiyac var. Həyat yoldaşımı qorumaq üçün atmış olduğum addım - çıxılmaz, ən sonuncu yol kimi qəbul etdiyim boşanma haqqında ağır qərara aydınlıq gətirməliyəm. Beləcə, yaranan və yarana biləcək bütün suallara da cavab vermiş olacağam.

Mədəniyyət Nazirliyinin bəzi məmurları qoçuluq edən aktrisanı niyə dəstəkləyirlər? Yaxud Mədəniyyət Nazirliyi kimin dostudur?

Görəsən, başqalarının əmək hüquqlarını ciddi şəkildə pozaraq sırf bir aktrisanın nazını çəkən Mədəniyyət Nazirliyinin bəzi məmurları bu ağlasığmaz cəsarəti haradan alıblar? Axı, havadarlıq prinsipi ilə yaşayan bir şəxsin tələbləri ilə hesablaşmaq bizə yaraşmaz! Vicdanlı vətəndaş kimi məhkəmənin verdiyi əsassız qərara susmaq isə heç olmaz!

# "Uşaqlara atası baxır" - Rəqsanənin qızı



***Müğənni Aysun İsmayılova anası Rəqsanə İsmayılovanın həbsdə olmasından, bacı və qardaşının aqibətindən danışıb.***

Aysun "Elgizlə izlə" proqramında uşaqlara atalarının baxdığını deyib: "Dörd uşağıq. Balacalar da Bakıdadı. Onlara ataları baxır".

Qeyd edək ki, Rəqsanəyə qarşı Cinayət Məcəlləsinin 178.4-cü (dələduzluq-xüsusilə külli miqdarda törədildikdə) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilib. Bu maddənin sanksiya həddində 10 ildən 14 ilə kimi azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur.

Amma dələduzluq cinayətində dəymiş ziyanın tam ödənilməsi və cinayət nəticəsində dəymiş ziyanın 50 faizi miqdarında dövlət büdcəsinə ödəniş etdikdə cinayət məsuliyyətindən azad edilə bilər.

R.İsmayılovanın həyat yoldaşı Fazil Əmiraslanov da cinayət məsuliyyətinə cəlb edilib. Rəqsanənin 4 övladı var.

# "Trendyol" insanları aldadır" - Qiymət artımından gileyləndi



***Model Səmra Hüseynova bu dəfə "Trendyol" alış-veriş saytının Azərbaycan bölməsindən şikayət edib.***

Model məhsulların türk versiyada ucuz, Azərbaycana sifariş versiyasına keçəndə isə üçqat artdığını bildirib.

"Bu süni qiymət artımıdır. Heç bir mesajlara baxılmır, bu dolandırıcı şirkətlə əlbir olan blogerlər, niyə insanları aldadırsınız? Niyə öz qiymətinə deyil, süni artırılmış qiymətlə aldadırsınız? Niyə yalandan kuponlar verirsiniz? Başınıza nə xəstəlik gəlirsə saf cəmiyyəti aldatdığınıza görədir.

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi, sizə ərizə də yolladım. Bu işlə bağlı rica edirəm tədbir görülsün. Süni qiymət artırır, saxta kuponlarla insanları aldadırlar" deyə, Səmra paylaşımında yazıb.

# "Ledi Qaqa məni təkrarlayır"

***Əməkdar artist Elza Seyidcahan dünya ulduzu Ledi Qaqa ilə bağlı açıqlamasıyla diqqət çəkib.***

Müğənni "Gün ortası" proqramında Qaqanın onu təkrarladığını bildirib: "Ledi Qaqa mənə həsəd aparıb, Ledi Qaqa olub. Çünki 1986-cı ildə mən həmin obrazda geyinəndə başa düşmürdülər: müzakirələr, tənqidlər. Sonra başladılar təkrar etməyə. Ledi Qaqa da 2006-cı ildən təkrarlamağa başladı. Çünki məndən sonra gəldi. Onun böyük komandası var. Onu sevirəm, izləyirəm və alqışlayıram. Səhnələrdə performans göstərir. Bəzi görməmiş müğənni kimi yox. Ulduz ulduz olmalıdır. Dedeməlidir, görməmiş kimi bura gəlirəm fişəng atın. Ulduz doğulursan və obraz olursan".

# "3 ildir ərimlə bal ayındayam" - Afət Fərmanqızı

***Tanınmış müğənni Afət Fərmanqızı şəxsi həyatı ilə bağlı maraqlı açıqlaması ilə diqqət çəkib.***

Efirə bağlanan sənətçi sevgi dolu münasibətindən danışaraq bildirib ki, evliliklərində hələ də ilk günkü hisslər yaşanır: "Artıq 3 ildir həyat yoldaşımla bal ayındayam. Sevgimiz, qayğımız bir gün də azalmayıb, əksinə, hər gün daha da möhkəmlənir. Sevgimiz ilk günkü kimidir. Bizdə bal ayı 10 il davam edəcək.

Afət Fərmanqızının bu sözləri sosial şəbəkə izləyiciləri tərəfindən müzakirə yaradıb. Onlar müxtəlif şərhlərlə fikir bildiriblər.



## "Dünyanın heç bir yerində belə təhsil sistemi yoxdur" - Emin Əmrullayev

***"1-5 yaşında olan uşaq məktəbəqədər təhsilə getməlidir. Bir uşağın dövlətə düşən xərci 4500 manatdır. Ümumilikdə Azərbaycanda 600 min uşaq var. Bütün uşaqları məktəbəqədər təhsilə göndərmək istəyiriksə, bu təxminən 2,7 milyard manat edir".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisdə "2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı elm və təhsil naziri Emin Əmrullayev deyib.

"Tək bu vəsaitin növbəti illərdə məktəbəqədər təhsilə xərclənməsi qeyri-real görünür. Dünyanın heç bir yerində belə təhsil sistemi yoxdur ki, dövlət məktəbəqədər təhsilə gedən bütün uşaqların təhsil haqqını ödəsin. 100% dövlət tərəfindən maliyyələşən model tapmaq çətindir. Bu problemin həllinin fərqli alternativ tələb etdiyini nəzərə alaraq son illər alternativ modellər tətbiq edirik", - deyə nazir bildirib.

***Anar Kəlbiyev***

## Ali Məhkəmə Əziz Orucovla bağlı qərar verdi

***Ali Məhkəmə "Kanal13" internet televiziyasının rəhbəri Əziz Orucovun kassasiya şikayətini təmin etməyib.***



"Unikal" xəbər verir kİ, bu barədə hakim İlkin Rəcəbovun sədrliyi ilə keçirilən prosesdə qərar qəbul olunub. Belə ki, onun aşağı instansiya məhkəməsinin qərarından verdiyi kassasiya şikayəti təmin edilməyib və barəsindəki hökm qüvvədə saxlanılıb.

Xatırladaq ki, Səbail Rayon Məhkəməsinin hökmü ilə Ə. Orucov 2 il müddətinə azadlıqdan məhrum edilib.

Daha sonra hökmdən apellyasiya şikayəti versə də, Bakı Apellyasiya Məhkəməsi şikayəti təmin etməyib.

Xatırladaq ki, Ə.Orucov 2023-cü ilin noyabrın 27-də saxlanılıb. Ona qarşı Cinayət Məcəlləsinin 188.2-ci (Qanunla müəyyən edilmiş mülkiyyət, istifadə və ya icarə hüququ olmadan torpaq sahəsi üzərində özbaşına tikinti) maddəsi ilə cinayət işi açılıb və şübhəli şəxs qismində saxlanılıb. Səbail Rayon Məhkəməsində keçirilən prosesdə Ə.Orucov barəsində həbs qətimkan tədbiri seçilib.

Daha sonra ona qarşı Cinayət Məcəlləsinin 206.3.2-ci (qaçaqmalçılıq-qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) maddəsi ilə yeni ittiham irəli sürülüb.

# Azərbaycanda məmur oliqarxiyasına həlledici zərbə

## "Artıq o məmurlardan, necə deyərlər, əsər-əlamət qalmayıb..." - Prezidentdən açıq, sərt və birbaşa mesajlar!

***Prezident İlham Əliyev noyabrın 12-də Naxçıvanda Prezidentin yeni səlahiyyətli nümayəndəsini və bir sıra rayonların icra hakimiyyətlərinə təyin olunan başçıları qəbul edərkən maraqlı fikirlər səsləndirib, sərt mesajlar verib. "Əfsuslar olsun ki, bəzi hallarda məmurlar özlərini cəmiyyətdə düzgün apara bilmirlər, ifrat dərəcədə təkəbbürlülük göstərirlər, özlərini hamıdan üstün tutmağa çalışırlar və beləliklə, həm öz nüfuzlarını itirirlər, eyni zamanda, dövlətimizə, dövlətin siyasətinə də ləkə vurmuş olurlar.***

Bununla bərabər, bəzi hallarda korrupsiyaya, rüşvətxorluğa düçar olurlar. Azərbaycan ictimaiyyəti yaxşı bilir ki, əyri yola gedən hər bir dövlət məmuru nəticədə məhkəmə, qanun qarşısında cavab verməli olur və belə hallar əfsuslar olsun ki, bu gün də var. Ancaq o da cəmiyyət üçün tam aydındır ki, heç bir qanunsuz hərəkət nəticəsiz qalmayacaq" - deyə Prezident bildirib.

Ölkə başçısı qeyd edib ki, vaxtilə bizim bölgələrimizdə proseslərin mənfi istiqamətdə getməsinin səbəbi də məhz mərkəzi icra orqanlarındakı bəzi məmurların xoşagəlməz hərəkətləri və tapşırıqları idi: "Artıq o məmurlardan, necə deyərlər, əsər-əlamət qalmayıb. Azərbaycanda məmur korpusunda, xüsusilə mərkəzi icra orqanlarında aparılan kadr islahatları nəticəsində vəziyyət böyük dərəcədə sağlamlaşdırılıb. Ona görə mən tam əminəm ki, bundan sonra mərkəzdən sizə hansısa bir qanunsuz tapşırıq verilməyəcək. Vaxtilə belə hallar olub və bu qanunsuz tapşırıqları verən, qanunsuz varlanmanı özləri üçün əsas məqsəd hesab edən məmurlar bu gün məhkəmə qarşısında cavab verirlər. Bir çox hallarda torpaqlardan səmərəsiz istifadə edilməsi halları olub, torpaqlar zəbt edilib, torpaqların kateqoriyaları dəyişdirilib. Əkin-biçin üçün yararlı olan torpaqlarda bəzi məmurlar özləri üçün imarətlər inşa ediblər və əlbəttə ki, bütün bunlar qanunsuz hərəkətlərdir. Ancaq mən onu da bilirəm ki, yerlərdəki bəzi məmurlar məcbur olub o qanunsuz hərəkətləri icra ediblər. Onların, əlbəttə ki, üzərinə düşən məsuliyyət tamamilə başqa yanaşmanı tələb edirdi. Ancaq, eyni zamanda, o da həqiqətdir ki, bəzi hallarda bax, bu qanunsuz əməllərin təməlində harınlamış, acgöz, gözü doymayan mərkəzdə oturan məmurların göstərişləri olub. Amma yenə də deyirəm, sağlamlaşdırma və təmizləmə siyasəti nəticəsində artıq əminəm ki, sizə heç kim qanunsuz tapşırıq verməyəcək. Əgər kimsə bu tapşırığı verərsə, onda dərhal mənə məlumat verin və o adamlar haqqında ciddi ölçülər götürüləcək".

"İnsanlara diqqət göstərmək, onların qayğıları ilə yaşamaq, daim onların arasında olmaq lazımdır. Bütün kəndləri bir-bir gəzib orada - kəndlərdə insanlarla təmasda olmaq. Yəni, mənim tələblərim bundan ibarətdir. Hər təyinatda icra başçısı olsun, digər rəhbər şəxs olsun, mənim təlimatlarım bundan ibarətdir. Amma əfsuslar olsun ki, yenə də deyirəm, göstərdiyim etimada rəğmən bəzi məmurlar bu göstərişləri yerinə yetirmək əvəzinə, ancaq öz ciblərini güdərək qanunsuz varlanmaya üstünlük verirlər" - Prezident vurğulayıb.

Bir çox ekspertlər ölkə başçısının sözlərini Azərbaycanda məmur oliqarxiyasının tam aradan qaldırılması yönündə mesajlar kimi qiymətləndirirlər. Mərkəzi hakimiyyətdə yüksək post tutan, vəzifə səlahiyyətlərindən istifadə edərək tam korrupsionerləşən və oliqarxlaşan bir çox şəxslər son 7 ildə sistemli şəkildə öz kreslolarından kənarlaşdırılıblar. Xeyli sayda iri məmur cinayət məsuliyyətinə cəlb edilib və onların bir çoxu qandallanıb, hazırda həbsxanalarda müxtəlif qanunsuzluqlara yol vermiş kifayət qədər yuxarı vəzifəlilər var.



Ekspertlərin fikrincə, ötən ay start verilən "Ramiz Mehdiyev işi" bir neçə ildir ardıcıl və prinsipial şəkildə davam etdirilən prosesin tərkib hissəsidir. Mehdiyev və onun ətrafı ilə bağlı baş verənlər merkantil prinsiplərlə işləyən, ən əsası, dövlətin və xalqın mənafelərini arxa plana ataraq şəxsi maraqları ön plana çəkən köhnə məmur korpusunun tamam sıradan çıxarılması istiqamətində son (və həlledici!) addım sayılır. Belə hesab edilir ki, ölkə başçısının noyabrın 12-dəki qəbul zamanı səsləndirdiyi fikirləri həm də məhz bu kontekstdə oxumaq və qavramağa çalışmaq lazımdır. Prezident açıq şəkildə bəyan edir ki, artıq mərkəzdə oturan məmurların uzun illər boyu qurduğu hegemoniya bitib, prinsipial və ardıcıl şəkildə aparılan SAĞLAMLAŞDIRMA və TƏMİZLƏMƏ SİYASƏTİ nəticəsində ölkədəki idarəetmə yeni mərhələyə qədəm qoyub. Bu mərhələnin nüvəsində Dövlətə və Xalqa xidmət, şəffaflıq, hesabatlılıq dayanır.

Yeni mərhələni şərtləndirən başlıca amillərdən biri - yeni məmur korpusunun formalaşdırılmasıdır. Lakin Prezident həm də xəbərdarlıq edir ki, əgər yeni məmur korpusunda təmsil olunanlardan kimlərsə yenə də köhnə prinsiplərlə işləsələr, "gözü çıxmış qardaşların" - idarəetmədən kənarlaşdırılmış və hüquqi məsuliyyətə cəlb edilmiş sabiq məmurların yolu ilə getsələr, onlara da güzəşt olunmayacaq. Sitat: "...sizdən tələbim, eyni zamanda, xoşagəlməz hallara qarşı ciddi mübarizə aparmaq, kadr siyasətində etibarlı, peşəkar və mənəvi cəhətdən təmiz kadrları seçmək, rəhbərlik edəcəyiniz bölgələrdə öz işinizlə mənim seçimimin düzgün olduğunu sübut etməkdir. Əks təqdirdə, əlbəttə ki, lazımi ölçülər götürüləcəkdir".

Ekspertlər onu da vurğulayırlar ki, öz fəaliyyətini daha çox büdcə vəsaitlərinin talançılığı, vəzifə səlahiyyətlərindən sui-istifadə, harınlıq, acgözlük üzərində quran köhnə məmur korpusu uzun illər boyunca əl altından faktiki olaraq hökumətin fəaliyyətini sabotaj etməklə, cəmiyyətdə hakimiyyətdən narazılıq əhval-ruhiyyəsini gücləndirmək, Dövlətlə Xalq arasında sədd çəkməyə çalışmaqla məşğul olublar. Bu səbəbdən də ictimaiyyət həmin məmur korpusunun ifşasını və cəzalandırılmasını xeyli vaxtdır gözləyirdi. Bir neçə il əvvəldən başlayan həmin proses artıq yekunlaşmaqda, "Ramiz Mehdiyev işi" ilə idarəetmədə SAĞLAMLAŞDIRMA və TƏMİZLƏMƏ yönündə sonuncu qəti addımlar atılmaqdadır. Nəticə etibarilə Prezidentin mesajları Azərbaycanda məmur oliqarxiyası dövrünün bitdiyinin açıq və birbaşa ifadəsidir. Bu mesajlardan aydın olur ki, işğal altındakı torpaqların azad edilməsi ilə nəticələnən HƏRBİ ZƏFƏRİN ardınca artıq növbəti - onlara etibar olunan yüksək vəzifələrdən şəxsi maraqları üçün faydalanan korrupsionerləşmiş və oliqarxlaşmış köhnə məmur korpusu üzərində SİYASİ ZƏFƏR qazanılıb.

Prezidentin xüsusilə də "Artıq o məmurlardan, necə deyərlər, əsər-əlamət qalmayıb" sözlərini bu SİYASİ ZƏFƏRİN elanı kimi anlamaq lazımdır.

***Sənan Mirzə***

43_27 IYUI-QARA.qxd 11/13/2025 9:15 PM Page 4



# Zəfərdən sonra Azərbaycan müqavimət gücünü daha da artırıb

**Ordumuz çoxşaxəli, müasir və inteqrasiya edilmiş yüksək səviyyəli əməliyyat potensialına malik olmaqla regionda geosiyasi nizam yaradan qüvvə kimi özünü təqdim edir**



***"Azərbaycan Qələbədən keçən 5 il ərzində özünün silah sistemini yeniləyərək onu genişləndirib. Bundan əlavə Azərbaycan elit qüvvələrinin, o cümlədən xüsusi təyinatlı qoşunlarının say tərkibini artırıb".***

"Unikal" xəbər verir ki, bu fikirləri siyasi şərhçi Aqşin Kərimov səsləndirib. O bildirib ki, Azərbaycan həm silah idxalında, həm şəxsi heyətin sayının artırılmasında, həm də yerli müdafiə sənayesini inkişaf tempində özünün strateji dayanıqlılığına diqqət yetirir: "Bundan başqa, Qələbənin 5-ci ildönümünə həsr olunmuş Hərbi paradda nümayiş olunan ən müasir silahlar və qoşun növlərinin keçidi aydın şəkildə Azərbaycanın çəkindirmə qabiliyyətini əks etdirdi. Yəni, Azərbaycan Silahlı Qüvvələri çoxşaxəli, müasir və inteqrasiya edilmiş yüksək səviyyəli əməliyyat potensialına malik olmaqla regionda geosiyasi nizam yaradan qüvvə kimi özünü təqdim edir.

Azərbaycanın çəkindirmə gücü özümüdafiə strategiyasına əsaslanır və bunun üçün silahların yanaşı, şəxsi heyətin peşəkarlığını, kəşfiyyat orqanlarının funksiyalarını özündə birləşdirir. Yəni Azərbaycan çəkindiricilik qabiliyyəti üçün lazım olan komponentlərə malikdir. Bu, getdikcə qütbləşən qlobal nizamda sabitliyin, təhlükəsizliyin qorunmasının komponenti kimi diqqətəlayiqdir".

A.Kərimov onu da qeyd edib ki, Azərbaycan regionda dəyişən güc dinamikaları fonunda özünün silahlı və kəşfiyyat vasitələrini yüksəltməklə daha geniş məqsədləri elan etmiş olur: "Bu xüsusda Paradda nümayiş olunan silahların bəziləri regional dəyişkənlik mühitində çəkindirmə vasitəsi kimi çıxış edir. Azərbaycan onsuz da ən müasir pilotsuz uçuş aparatlarını, zərbə dronlarını öz arsenalına daxil edib. Lakin Paradda bu siyahının genişlənməsi əyani şəkildə göründü. Misal üçün, Azərbaycanın balansında qabaqcıl "İce Breaker" qabaqcıl zərbə bacarığına malik raketinə sahib olması diqqət çəkir. Bu raket quru və dəniz hədəflərinə qarşı əhəmiyyətli yüksək dəqiqlikli zərbə performansını təmin edən sistemə malikdir.

Göründüyü kimi, Azərbaycan təkcə quru sərhədlərinin deyil, ərazi sularının da müdafiəsi üçün lazım olan vasitələri özünün aktivinə əlavə edir. Bundan əlavə, hücum silahları ilə bərabər, müdafiə sistemlərinin, o cümlədən hava hücumundan müdafiə sistemləri Azəraycanın balansından əhəmiyyətli yer tutur. Bu, hərtərəfli strateji müdafiə qabiliyyətini vurğulamağa imkan yaradır".

***Seymur Əli***

# Gələn il heyvan xəstəliklərinə qarşı tədbirlər gücləndiriləcək - Nazir açıqladı



***Azərbaycanda gələn il baytarlıq xidmətləri və heyvan xəstəliklərinə qarşı profilaktik tədbirlər daha da gücləndiriləcək.***

"Unikal" xəbər verir ki, bunu kənd təsərrüfatı naziri Məcnun Məmmədov Milli Məclisin Aqrar siyasət, Ailə, qadın və uşaq məsələləri, Elm və təhsil komitələrinin bu gün keçirilən birgə iclasında bildirib. Onun sözlərinə görə, malqaranın xəstəliklərdən qorunması istiqamətində vaksinasiya tədbirləri dövlət hesabına davam edir: "Mal-qaranın qarayara, dabaq, bruselyoz, quduzluq və digər yoluxucu xəstəliklərə qarşı vaksinləşdirilməsi dövlət hesabına həyata keçirilir".

Nazir qeyd edib ki, gələn il baytarlıq xidmətinin təşkili, vaksinlərin və baytarlıq ləvazimatlarının alınması üçün 41,9 milyon manat ayrılması nəzərdə tutulub: "Bu sahənin daha səmərəli təşkili üçün nəzərdə tutulan məbləğin 3 milyon manat artırılması ilə bağlı müraciət etmişik".

M. Məmmədov bitki mühafizəsi və aqrokimya xidmətlərinə də ayrılan vəsaitin artırıldığını vurğulayıb. Onun sözlərinə görə, 2026-cı ildə zərərvericilərlə mübarizə tədbirləri üçün 5,4 milyon manat, aqrokimyəvi analizlər və toxum nəzarəti üçün isə 8,2 milyon manat vəsait nəzərdə tutulur.

Nazir bildirib ki, bu məbləğ cari illə müqayisədə 5,7 % çoxdur və xidmətlərin əhatə dairəsinin genişlənməsinə imkan verəcək.

***Anar Kəlbiyev***

# Azərbaycan Milli Kitabxanası Beynəlxalq Konqresdə təmsil olunur

***Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşü çərçivəsində 12-16 noyabr 2025-ci il tarixlərində Özbəkistan Respublikasının Daşkənd şəhərində "Mərkəzi Asiya və Azərbaycanda mənəvi irs və maarifçilik" mövzusunda Beynəlxalq Konqres keçirilir.***




Mərkəzi Asiya ölkələrinin mənəvi dəyərlərə sadiqliyini ifadə edən, mədəniyyətlərarası dialoqun inkişafına və humanitar əməkdaşlığın möhkəmlənməsinə töhfə verən universal platforma rolu oynayan Konqres Özbəkistan İslam Sivilizasiyası Mərkəzi, Xarici İşlər Nazirliyi, Özbəkistanın Mədəni İrsin Öyrənilməsi, Qorunması və Təbliği üzrə Ümumdünya Cəmiyyəti (WOSCU), Özbəkistan Elmlər Akademiyası və Mərkəzi Asiya Beynəlxalq İnstitutunun təşkilatçılığı ilə baş tutur.

13 noyabr tarixində Özbəkistan İslam Sivilizasiyası Mərkəzində Konqresin açılış mərasimi, Mərkəzin muzey ekspozisiyaları, həmçinin Beynəlxalq Platforması və Xəttatlıq Məktəbi ilə tanışlıq olub.

Konqres Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin iştirakçılara müraciəti ilə başlayıb, ölkəmizin və Mərkəzi Asiya ölkələrinin mədəniyyət nazirlərinin, müftilərinin, Elmlər Akademiyalarının prezidentlərinin, milli muzey direktorlarının, gənclərlə iş şöbələrinin, "Mədəniyyət" telekanallarının, rəssamlıq akademiyalarının, milli kitabxanalarının, yazıçılar və bəstəkarlar birliklərinin rəhbərlərinin iştirakı ilə plenar iclaslar şəklində davam edib.

Plenar iclasda Azərbaycan kitabxanaları adından Azərbaycan Milli Kitabxanasının direktoru professor Kərim Tahirov salamlama nitqi ilə çıxış edib və Özbəkistan İslam Sivilizasiyası Mərkəzinin fəaliyyətinə uğurlar arzulayıb.

Qeyd edək ki, Konqres 14 noyabr tarixində müxtəlif mövzularda tematik bölmə iclasları ilə davam edəcək.

# Azərbaycan və Türkiyə arasında texniki reqlamentlər üzrə əməkdaşlıq gücləndirilir

***Azərbaycan və Türkiyə sahibkarları arasında əlaqələrin dərinləşdirilməsi barədə razılıq əldə olunub.***

"Unikal" bu barədə Prezident yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə istinadən verir.

Məlumata görə, qurumda Türkiyə-Azərbaycan İş Adamları və Sənayeçiləri İctimai Birliyinin (TÜİB) nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə Agentlik sədrinin müşaviri İlqar Həsənov qurumun keyfiyyət infrakstrukturu sahəsindəki fəaliyyət istiqamətləri, görülmüş işlər, əldə olunmuş nəticələr və qarşıya qoyulan hədəflər barədə ətraflı məlumat verib, "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023-2025-ci illər üçün Dövlət Proqramı" və onun icrası çərçivəsində görülmüş işlər, qəbul olunmuş normativ hüquqi aktlar, hazırlanmış layihə və hesabatlar, həyata keçirilən tədbirlərin nəticələri və onların iqtisadi təsirlərini diqqətə çatdırıb.



Həmçinin ölkədə keyfiyyət infrastrukturunun inkişafı, xüsusilə milli texniki reqlamentlərin qəbulu və tətbiqinin istehlak bazarına, eləcə də sahibkarlıq fəaliyyətinə təsiri barədə qarşılıqlı müzakirələr aparılıb. Bildirilib ki, istehlak bazarının keyfiyyətli və təhlükəsiz qeyri-qida malları ilə təmin olunması məqsədilə aidiyyəti dövlət orqanları tərəfindən hazırlanmış milli texniki reqlament layihələri Agentliyin internet səhifəsində ictimai dinləmə və müzakirəyə çıxarılıb.

Görüşdə Agentliyin tabeliyində olan Azərbaycan Metrologiya İnstitutunda (AzMİ) yaradılmış yeni laboratoriyalar və göstərilən xidmətlər barədə məlumat verilib. Bundan əlavə, milli akkreditasiya sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılması istiqamətində görülən işlərdən bəhs edilib, Agentliyin tabeliyində olan Azərbaycan Akkreditasiya Mərkəzinin (AzAK) Asiya-Sakit Okean Akkreditasiya Əməkdaşlığı (APAC) və Laboratoriyaların Akkreditasiyası üzrə Beynəlxalq Əməkdaşlıq Təşkilatına (İLAC) tamhüquqlu üzv qəbul edildiyi diqqətə çatdırılıb.

Sonda keyfiyyət infrastrukturu sahəsinin inkişafı istiqamətində təkliflər dinlənilib, tərəflər arasında qarşılıqlı əməkdaşlıq çərçivəsində maarifləndirmə tədbirlərinin genişləndirilməsi barədə razılığa gəlinib.

# İlham Əliyevdən Zəngəzur dəhlizi ilə bağlı açıqlama



***Zəngəzur dəhlizinin açılması bütün Mərkəzi Asiya ölkələrinə fayda gətirəcək.***

"Unikal" xəbər verir ki, bunu Prezident İlham Əliyev Özbəkistanın UzA agentliyinə müsahibəsində deyib.

Dövlətimizin başçısı, həmçinin qeyd edib ki, ölkəmizdə yaradılan müasir nəqliyyat infrastrukturu, o cümlədən ticarət donanması, yaxın illərdə gücü 25 milyon tona çatacaq Ələt Beynəlxalq Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu və ölkənin doqquz beynəlxalq hava limanı da daxil olmaqla, bütün bunlar Azərbaycanın qlobal nəqliyyat və logistika qovşağı kimi rolunu gücləndirən amillərdir.

# "Dünya çempionatının təşkili ortaq tarixi nailiyyətdir" - Dövlət başçısı



***"Futbol üzrə U-20 Dünya çempionatının final mərhələsinin Azərbaycanda və Özbəkistanda keçirilməsi Avropa ilə Asiyanı birləşdirəcək ortaq tarixi nailiyyətdir".***

"Unikal" xəbər verir ki, bunu Prezident İlham Əliyev Özbəkistanın Milli İnformasiya Agentliyinə (UzA) müsahibəsində bildirib.

"Həmçinin idman sahəsində əməkdaşlıqda yaxşı nəticələr var. İki ölkənin birgə səyləri sayəsində FIFA İcraiyyə Komitəsi 2027-ci ildə keçiriləcək futbol üzrə U-20 Dünya çempionatının final mərhələsini Azərbaycanda və Özbəkistanda təşkil etmək qərarına gəlib. Bu, Avropa ilə Asiyanı birləşdirəcək ortaq tarixi nailiyyətdir", - deyə o qeyd edib.

Qeyd edək ki, mundial 2027-ci ildə iki ölkədə təşkil olunacaq.

# Hərbi prokurorluqda yeni təyinat olub



***Hərbi prokurorluqda yeni təyinat olub.***

"Unikal" xəbər verir ki, bu barədə Hərbi prokuror Bəhruz Əhmədov müvafiq əmr imzalayıb.

Əmrə əsasən, ədliyyə polkovnik-leytenantı İbrahimov Azər Vaqif oğlu Hərbi prokurorun böyük köməkçisi vəzifəsinə təyin edilib.

# Prezident bu qanuna dəyişikliyi təsdiqlədi

***Prezident İlham Əliyev Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" Qanunda dəyişiklik edilməsi barədə Qanunu təsdiqləyib.***



"Unikal" xəbər verir ki, yenilənmiş qanuna əsasən, İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin tabeliyindəki Qaradağ Sənaye Parkının rezidenti - "Bakı Gəmiqayırma Zavodu" MMC üçün vergi-gömrük güzəştlərinin müddəti artırılıb.

Belə ki, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı sənaye parkında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi fəaliyyətlə məşğul olan sənaye parkının rezidentinin sənaye parkındakı həmin fəaliyyətdən əldə etdiyi mənfəət - 2025-ci il yanvarın 1-dən 6 il müddətinə vergidən azad edilib.

Bundan başqa, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı sənaye parkında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi fəaliyyətlə məşğul olan sənaye parkının rezidenti həmin fəaliyyət prosesində istifadə etdiyi sənaye parkındakı əmlakına görə 2025-ci il yanvarın 1-dən 6 il müddətinə əmlak vergisini ödəməkdən, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı sənaye parkında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi fəaliyyətlə məşğul olan sənaye parkının rezidenti həmin fəaliyyət prosesində istifadə etdiyi sənaye parkındakı torpaqlara görə 2025-ci il yanvarın 1-dən 6 il müddətinə torpaq vergisini ödəməkdən azad olunub.

Həmçinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı sənaye parkında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi fəaliyyətlə məşğul olan sənaye parkının rezidenti tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında həmin fəaliyyətin məqsədləri üçün bütün növ malların idxalı - 2016-cı il mayın 1-dən 14 il müddətinə gömrük rüsumundan azad edilib. İndiyə qədər bu müddəti 10 il idi.

# Hikmət Hacıyev Türkiyədə həlak olan azərbaycanlı jurnalistlə bağlı paylaşım etdi

***Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev tanınmış jurnalist Emin İbrahimovun vəfatı ilə bağlı başsağlığı yayıb.***



"Unikal" xəbər verir ki, bu barədə "X"də edilən paylaşım edib.

"Allah rəhmət eləsin", - paylaşımda bildirilib.

Qeyd edək ki, Azərbaycanlı jurnalist, "Euronews" telekanalının müxbiri Emin İbrahimov Türkiyədə yol-nəqliyyat hadisəsi nəticəsində həlak olub.

# 25 mindən çox müəllimin sertifikasiyaya cəlb olunması gözlənilir

***"Gələn il 25 mindən çox müəllimin sertifikasiyaya cəlb olunması gözlənilir".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisdə "2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı elm və təhsil naziri Emin Əmrullayev deyib.

Nazir bildirib ki, bu məqsədlə dövlət büdcəsində əlavə 58.4 milyon manat olmaqla, ümumilikdə sertifkatlaşdırma çərçivəsində əməkhaqqıya əlavələrlə bağlı 213 milyon manat vəsait proqnozlaşdırılıb:

"Gələn il artıq demək olar ki, bütün fənlər üzrə müəllimlərin böyük əksəriyyətinin sertifkatlaşdırılma prosesini bitirmiş olacağıq. Yalnız 2026-cı ildə uğursuz olan müəllimlərin 2027-ci ildə təkrar sertifkatlaşdırılması prosesi qalacaq. 2027-dən artıq 2022-ci ildə sertifkatlaşdırmadan keçən müəllimlər təkrar ikinci dövrədə sertifkatlaşdırmaya cəlb olunacaq".

***Anar Kəlbiyev***

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

# Ceyhun Bayramov Pakistanın federal ombudsmanı ilə görüşdü

***Noyabrın 13-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan Asiya Ombudsmanlar Assosiasiyasının prezidenti, Pakistanın federal ombudsmanı Ecaz Əhməd Qureşinlə görüşüb.***

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən "Unikal"a verilən məlumata görə, görüş zamanı Azərbaycan-Pakistan münasibətlərinin dostluq və qardaşlıq prinsipləri əsasında dinamik inkişafından məmnunluq ifadə edilib, dövlətlərarası strateji tərəfdaşlığın təşəkkülündə iki ölkənin liderləri arasında yüksəksəviyyəli təmasların müstəsna rolu vurğulanıb.



Son bir il ərzində ikitərəfli və çoxtərəfli formatlarda baş tutan çoxsaylı ali və yüksəksəviyyəli təmaslar, xüsusilə də Azərbaycan, Pakistan və Türkiyə liderlərinin cari ilin mayında Laçın şəhərində keçirilmiş üçtərəfli görüşü, eləcə də Pakistan Baş nazirinin 8 Noyabr - Zəfər Gününün 5-ci ildönümünə həsr olunmuş Hərbi paradda iştirakı məmnunluqla xatırlanıb.

Azərbaycan ilə Pakistan arasında iqtisadi əməkdaşlıq və qarşılıqlı investisiyaların artan dinamikası qeyd olunub, bunun digər sahələrdə əlaqələrin inkişafına müsbət təsir göstərdiyi diqqətə çatdırılıb.

İki ölkənin Ombudsman aparatları arasında əməkdaşlığın öz növbəsində ikitərəfli münasibətlərimizin dərinləşdirilməsi və genişləndirilməsinə əlavə dəyər qatdığı bildirilib.

Beynəlxalq və regional təşkilatlar, o cümlədən BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı və Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə çərçivəsində iki ölkənin qarşılıqlı dəstəyə əsaslanan koordinasiyalı fəaliyyəti yüksək qiymətləndirilib.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

43_27 IYUI-QARA.qxd 11/13/2025 9:16 PM Page 6



# Samir Nuriyev Prezidentin Naxçıvandakı yeni nümayəndəsini kollektivə təqdim etdi



***Noyabrın 13-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyev Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi vəzifəsinə təyin olunmuş Ceyhun Ramiz oğlu Cəlilovu muxtar respublikanın ictimaiyyətinə təqdim edib.***

”Unikal” xəbər verir ki, tədbirdən əvvəl Naxçıvan şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyulub.

Təqdimat mərasimində çıxış edən Samir Nuriyev bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasının sosial, iqtisadi və mədəni inkişafı məsələlərini daim diqqət mərkəzində saxlayır.

Ölkəmizdə aparılan quruculuq işlərinin tərkib hissəsi kimi Naxçıvanın inkişafı istiqamətində mühüm tədbirlərin həyata keçirildiyini qeyd edən Prezident Administrasiyasının rəhbəri “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın qəbul edildiyini, davamlı iqtisadi və sosial artıma nail olmaqla muxtar respublikanın inkişafının sürətləndirilməsinin və ölkə iqtisadiyyatına tam inteqrasiyasının əsas hədəf olduğunu qeyd edib.

Bildirilib ki, Dövlət Proqramının həyata keçirilməsinə dair Tədbirlər Planına uyğun olaraq əlverişli biznes mühitinin yaradılması, ticarətin, ixracyönümlü sənayenin, kənd təsərrüfatının, turizmin, infrastruktur təminatının, sosial sferanın, insan kapitalının və digər sahələrin inkişafı ilə bağlı qaşıda duran vəzifələrin vaxtında və keyfiyyətlə icrası üçün mövcud imkanlardan daha səmərəli istifadə olunmalı və bütün qüvvələr səfərbər edilməlidir.

Azərbaycan Prezidentinin noyabrın 12-də yeni təyinatlarla əlaqədar qəbulda səsləndirdiyi fikirlərə toxunan Prezident Administrasiyasının rəhbəri dövlətimizin başçısının xalqa xidməti, təvazökarlığı, vəzifə borcuna məsuliyyətli yanaşmanı əsas iş prinsipləri hesab etdiyini və hər bir məmurun öz fəaliyyətində bu prinsipləri rəhbər tutmalı olduğunu deyib.

Samir Nuriyev Azərbaycan Prezidentinin tapşırıq və tövsiyələrini muxtar respublikanın yeni rəhbərliyinə çatdıraraq dövlətimizin başçısının göstərdiyi etimadın doğruldulacağına ümid etdiyini bildirib.

# MEDİA qəzet və saytlara dəstək müsabiqəsi elan etdi

***Media Reyestrinə daxil edilmiş ictimai-siyasi qəzetlər müsabiqədə iştirak edə bilərlər.***

”Unikal” xəbər verir ki, müsabiqədə iştirak etmək üçün müraciət və ona əlavə edilən sənədlər elektron formada mib.media.gov.az portalı vasitəsilə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinə təqdim edilir. Müsabiqənin yekununda qalib elan edilmiş qəzet redaksiyaları ilə Agentlik arasında maliyyə yardımının göstərilməsinə dair müqavilə imzalanır və 6 (altı) ay müddətində qüvvədə olur.

Agentlik tərəfindən qəzetlərin həftədə bir nömrəsinin çapına maliyyə yardımı göstərilir və bu məqsədlə onlara aylıq 5000 (beş min) manat məbləğində vəsait ödənilir, qəzetin eyniadlı veb-saytına isə aylıq 3000 manat (əsaslı yenilənmə niyyəti ifadə edilmişdirsə, ilk ay 5000 manat olmaqla) məbləğində maliyyə yardımı göstərilir.

Bundan əlavə, Media Reyestrinə daxil edilmiş ictimai-siyasi və idman məzmunlu




kütləvi informasiya dərc edən onlayn media subyektləri müsabiqədə iştirak edə bilərlər. Müsabiqədə iştirak etmək üçün müraciət və ona əlavə edilən sənədlər elektron formada mib.media.gov.az portalı vasitəsilə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinə təqdim edilir.

Media subyektlərinin müsabiqədə iştirak etməsi üçün bir nəfər məsul redaktor və üç nəfər jurnalist olmaqla ən azı dörd nəfərdən ibarət heyəti olmalıdır.

Müsabiqənin yekununda qalib elan edilmiş onlayn media subyektləri ilə Agentlik arasında həmin subyektlərin hər birinə aylıq 5000 (beş min) manat məbləğində maliyyə yardımının göstərilməsinə dair müqavilə imzalanır və 6 (altı) ay müddətində qüvvədə olur. Bu dövr ərzində müvafiq dörd nəfər işçinin hər birinin əməkhaqqının minimum məbləği 800 (səkkiz yüz) manat təşkil etməlidir.

Qeyd edək ki, müsabiqəyə 26 noyabr 2025-ci il saat 18:00-dək müraciət etmək mümkündür.

# Azərbaycanda bu müəllimlərin yüksək əməkhaqqı olacaq

***“Azərbaycan təhsilinin ən problemlatik hissəsi ibtidai təhsildir. Yəni, ibtidai təhsili düzəltmədən, orta, tam orta, peşə və ya ali təhsili düzəltmək olmur. Çünki fundamentsiz ev tikmək olmur”.***

”Unikal” xəbər verir ki, bunu Milli Məclisdə “2026-cı il dövlət büdcəsi haqqında” qanun layihəsinin müzakirəsi zamanı elm və təhsil naziri Emin Əmrullayev deyib.

“Ona görə də təxminən 40-50% uşaq artıq ibtidai təhsildən sonra təhsilini davam etdirməkdə çətinlik çəkir. İbtidai təhsilin içinə girib düzəltmək lazımdır. Sertifikatlaşdırmaya yanaşmamız budur ki, müəllimliyin saathesabı, yarımştat, hərdənbir məktəbə gəlib dərs demək işindən daimi iş rejiminə keçməsidir. Bunu istəyən müəllimlər üçün tətbiq ediləcək, heç kəs heç kəsi buna məcbur etməyəcək. Tamamilə rəqabətli, yüksək əməkhaqqısı olacaq və daimi ştatda olan müəllimin dərs yükü 18 saat olacaq. Yerdə qalan saat hissələrini isə təhsilə aid digər işlərlə məşğul olacaq. Bunu hansı müəllim istəsə ki, yüksək əməkhaqqı ilə işləsin, onlar üçün tətbiq olunacaq. Yalnız bu müəllimlər sertifikasiyadan yüksək bal toplayanlar arasından seçiləcək. İstəməsələr saathesabı sistemlə davam edə bilərlər”, - deyə nazir bildirib.

***Anar Kəlbiyev***

# Zeynal Nağdəliyev Elşən Həsənlini kollektivə təqdim etdi

***Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı təyin olunan Elşən Nazim oğlu Həsənli bu gün Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev tərəfindən rayon ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə kollektivə təqdim olunub.***

”Unikal” xəbər verir ki, təqdimatda Zeynal Nağdəliyev çıxış edib və ölkə başçısının tapşırıq və tövsiyələrini çatdırıb. E.Həsənli ona göstərilən etimada görə minnətdarlıq edib.

# “General çox təkəbbürlü idi, Prezident bunu görüb işdən çıxardı” - Deputat

***“General-mayor İlqar Abbasov çox təkəbbürlü idi”. “Unikal” xəbər verir ki, bunu deputat Razi Nurullayev Milli Məclisin Aqrar siyasət, Ailə, qadın və uşaq məsələləri, Elm və təhsil komitələrinin birgə iclasında “2026-cı il dövlət büdcəsi haqqında” qanun layihəsinin müzakirəsi zamanı bildirib.***

“Dövlət məmurları təkəbbürdən uzaq olsunlar. Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəisi var idi - general-mayor İlqar Abbasov, çox təkəbbürlü idi. O qədər şikayətlər alırdım. Bunu yüksək qiymətləndirirəm ki, dövlət, Prezident gördü, onu vəzifəsindən uzaqlaşdırdı”, - deyə deputat əlavə edib.

Qeyd edək ki, İlqar Abbasov ötən ay Prezidentin Sərəncamı ilə Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəisi vəzifəsindən azad edilib. O, 2022-ci ilin iyulunda sözügedən vəzifəyə təyin olunmuşdu.

***Anar Kəlbiyev***

# İcmal büdcədə gəlirlər proqnozu üstələyib

***Bu ilin yanvar-oktyabr ayları ərzində icmal büdcənin gəlirləri 40 960,7 milyon manat təşkil edib ki, bu da on aylıq proqnozu 3 946,5 milyon manat və ya 10,7 faiz üstələyib.***

“Unikal” xəbər verir ki, bu barədə Maliyyə Nazirliyi məlumat yayıb. Bildirilib ki, eyni dövrdə dövlət büdcəsinin gəlirləri 32 891,4 milyon manat təşkil edib. Bu da on aylıq proqnozu 536,8 milyon manat və ya 1,7 faiz üstələyib.

2025-ci ilin 10 ayı ərzində İcmal büdcənin xərcləri 32 691,7 milyon manat məbləğində icra edilib. Məlumata görə, bu, ötən ilin 10 aylıq icra göstəriciləri ilə müqayisədə 872.7 milyon manat və ya 2,7 faiz çoxdur.

Həmin dövrdə dövlət büdcəsinin xərcləri isə 27 720,6 milyon manat məbləğində icra edilib ki, bu da ötən ilin anoloji dövrü ilə müqayisədə 387,6 milyon manat və ya 1,4 faiz azdır.

43_27 IYUl-QARA.qxd 11/13/2025 9:16 PM Page 7





## Qərbi Azərbaycan İcmasında xüsusi komissiya yaradılıb

***Qərbi Azərbaycan İcmasında xüsusi komissiya yaradılıb***

Prezident İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley tədbirindəki çıxışında toxunduğu Qərbi Azərbaycan məsələsinə dair çağırışından sonra xüsusi komissiya yaradılıb.

"Unikal" xəbər verir ki, bunu Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, komissiyanın yaradılmasında məqsəd Qərbi Azərbaycanla bağlı indiyədək məlum olmayan mənbələri üzə çıxarmaqdır:

"Qərbi Azərbaycan İcması yarandığı gündən etibarən Qərbi Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində fəaliyyət göstərib. Prezidentin bu çağırışından sonra icmada xüsusi komissiya yaradılıb. Biz Qərbi Azərbaycanla bağlı indiyədək məlum olmayan mənbələri üzə çıxarmaq və Azərbaycan həqiqətlərini daha geniş şəkildə təqdim etmək üçün bütün imkanlarımızı səfərbər edəcəyik".

## Bakıda səfirlik maşını qaydaları pozdu

***Bakıda səfirlik avtomobilinin avtobus dayanacağı və velosiped zolağında qaydaları pozmasına dair foto yayılıb.***

"Unikal" xəbər verir ki, fotonu sosial şəbəkədə teleaparıcı İlkin Həsəni paylaşıb.

O, fotonu "Yeni "mikrodiplomatiklik" zolaqları" başlığı ilə təqdim edib.

Qeyd edək ki, qaydaları pozan avtomobilin Böyük Britaniya səfirliyinə məxsus olduğu bildirilir.

İnzibati Xətalar Məcəlləsinə əsasən, avtobus dayanacağı və velosiped zolağını zəbt edən avtomobil sahibləri cərimə olunurlar.

## Sumqayıtda daha 219 mənzil kirayə mexanizmi ilə satışa çıxarılır

***İpoteka və Kredit Zəmanət Fondu (Fond) satmaq öhdəliyi ilə kirayə mexanizmi çərçivəsində Sumqayıt şəhəri, Sülh küçəsində yerləşən yaşayış kompleksində daha 219 yeni, tam təmirli mənzili vətəndaşlara təqdim edib.***

"Unikal" Fonda istinadən xəbər verir ki, yaşayış sahələri 1, 2 və 3 otaqlı olmaqla, aylıq ödənişləri 347 manatdan başlayır.

Yeni mənzillər seçim üçün noyabrın 20-si saat 15:00-dan açıq olacaq. Vətəndaşlar təqdim olunan yaşayış sahələrinin siyahısı ilə bu keçid vasitəsilə tanış ola bilərlər.

Müraciətlərin qəbulu və mənzil seçimi Elektron hökumət portalına (e-gov.az) inteqrasiya edilmiş Elektron ipoteka və kredit zəmanət sistemi üzərindən həyata keçirilir.

İndiyə qədər satmaq öhdəliyi ilə kirayə mexanizmi çərçivəsində 8 456 kirayə müqaviləsi bağlanıb.

# "Yerlərdə olan rəhbərlər bəzən insanları dövlətdən narazı salırdılar"

### Azər Badamov: "Bundan sonra da hansı sahələrdə korrupsiya əməlləri müşahidə olunarsa, onlara qarşı qanun çərçivəsində tədbirlər görüləcək"



***Milli Məclisin deputatı Azər Badamov "Unikal"a müsahibə verib. O, Prezident İlham Əliyevin Naxçıvanda Prezidentin yeni səlahiyyətli nümayəndəsini və bir sıra rayonların icra hakimiyyətlərinə təyin olunan başçıları qəbul etməsindən, onlara verilən tapşırıqlardan hansı nəticə çıxarmalı olduğundan, bölgələrdə insanları işlə təmin etmək üçün hansı addımların atılacağından və iş adamları üçün hansı imkanların yaradıla biləcəyindən danışıb.***

***-Azər müəllim, ötən gün Prezident İlham Əliyev Naxçıvanda Prezidentin yeni səlahiyyətli nümayəndəsini və bir sıra rayonların icra hakimiyyətlərinə təyin olunan başçıları qəbul edib. Yeni vəzifəyə təyin olunan şəxslərin əksəriyyəti gənclərdir. Rəhbər vəzifədə olan şəxslərin dəyişdirilməsi prosesinin davam etdirilməsi gözlənilirmi?***

-Prezident İlham Əliyev Naxçıvanda Prezidentin yeni səlahiyyətli nümayəndəsini və bir sıra rayonların icra hakimiyyətlərinə təyin olunan başçıları qəbul etdi, onların qarşısında vəzifələr qoyaraq tapşırıqlar verdi. Yeni təyin olunan icra başçıları gənclərdir. Ümumiyyətlə, son vaxtlar təyin olunan rəhbər kadrların əksəriyyəti gənclərdir. Gənc kadrlar müasir biliklərə yiyələnib və müasir idarəetmə üsullarını öyrəniblər. Bu kadrların vəzifəyə təyin olunması idarəetmə sistemində şəffaflığın təmin olunmasına öz töhfəsini verəcək. Bundan sonra hansı sahədə idarəçilikdə nöqsanlar müşahidə olunarsa, təbii ki, həmin sahədə də müəyyən dəyişikliklər olacaq. O cümlədən yeni təyin olunmuş kadrlar cənab Prezidentin onların qarşısında qoyduğu tapşırıqlara əsasən öz fəaliyyətlərini quracaqlar. Ölkəmizdə korrupsiyaya qarşı mübarizə kampaniya xarakterli deyil, bu, davamlı siyasətin tərkib hissəsidir. Bundan sonra da hansı sahələrdə korrupsiya əməlləri müşahidə olunarsa, onlara qarşı qanun çərçivəsində tədbirlər görüləcək.

***-Prezident yeni təyin olunan başçılara tapşırıqlar verdi. Onlar bu tapşırıqlardan hansı nəticələr çıxarmalıdır?***

-Prezident İlham Əliyev yeni təyin olunan icra başçıları qarşısında çox ciddi tapşırıqlar qoydu. Xüsusilə vurğuladı ki, dövlət başçısının onlara verdiyi tapşırıqlar sözsüz icra olunmalıdır. Rəhbər vəzifədə çalışan hər bir şəxs, hər bir məmur təvazökar olmalıdır. İnsanlarla ünsiyyət yaratmaq, dövlətdən narazı salmamaq əsas məsələdir. Yəni, yerlərdə olan rəhbərlər bəzi hallarda insanları dövlətdən narazı salırdılar, öz şəxsi məqsədləri üçün vəzifədən istifadə edirdilər. Bu da sonda yaxşı nəticələrə gətirib çıxarmır. Yeni təyin olunmuş rəhbərlər dövlət başçımızın tapşırıqlarını əsas tutaraq öz fəaliyyətlərini quracaqlar. Hardasa qoyulan vəzifələr icra olunmursa, müasir dövrün tələblərinə uyğun şəkildə idarəetmə sistemi qura bilmirlərsə, onlar vəzifədən uzaqlaşdırılacaq, onların yerinə yeni kadrlar təyin olunacaq. Əsas məsələ odur ki, harda idarəetmə sistemi zəif həyata keçirilir, lazımi səviyyədə qurula bilinmirsə, orada rəhbərlərin dəyişdirilməsi, onların daha bacarıqlı, bilikli şəxslərlə əvəzedilməsi prosesi davam etdiriləcək. Kadrların rəhbər vəzifələrə təyin olunması onların bilik və bacarıqlarına uyğun şəkildə həyata keçirilir. Düşünürəm ki, yeni təyin olunan icra başçıları, Prezidentin səlahiyyətli nümayəndəsi təyin olunduqları regionlarda fəaliyyətləri ilə göstərilən etimadı doğrultmağa çalışacaqlar.

***-Dövlət başçısı bölgələrdən Bakıya, böyük şəhərlərə miqrasiya meyillərinin mövcud olduğunu bildirdi. Təbii ki, böyük şəhərlərdə imkanlar da genişdir, yaşayış səviyyəsi də daha yüksəkdir. Bütün bunlar başadüşüləndir. Ancaq, eyni zamanda, bölgələrdən şəhərlərə miqrasiyanın səbəblərindən biri də işsizlikdir. Bölgələrdə insanları işlə təmin etmək üçün hansı addımlar atılmalıdır?***

-Dövlət başçısının yeni təyin olunan rəhbər şəxslərin qarşısında qoyduğu vəzifələr ancaq onlara aid deyil. Həmçinin, hazırda vəzifədə olan şəxslərə də ünvanlanmış tapşırıqlardır. Ümumilikdə, ölkəmizdə idarəetmə sistemi yüksək səviyyədə qurulmalıdır. Bu gün bölgələrdən böyük şəhərlərə axın olması görünür. Çünki şəhərlərdə iş yerləri daha çoxdur. Təbii ki, böyük şəhərlərdə imkanlar da genişdir, yaşayış səviyyəsi daha yüksəkdir. İnsanlar əsasən şəhərlərdə gəlir əldə etmək və ailəsini dolandırmaq üçün daha həvəsli olurlar. Amma dövlət başçısı bir daha qeyd etdi ki, rayonlarda, kəndlərdə yeni iş yerləri yaradılmalı, onların şəhərə gəlmək istəkləri, şəhərdə istədikləri kimi iş tapmaq arzuları olduqları yerlərdə reallaşmalıdır. Yeni iş yerlərinin yaradılması üçün müəyyən tədbirlər görülməli, sahibkarların fəaliyyəti üçün süni maneələr yaradılmamalı, yeni iş yerlərinin yaradılması üçün rayonlara əlavə investisiyalar cəlb edilməli, yeni müəssisələrin açılması üçün öz səlahiyyətləri çərçivəsində töhfə verməlidirlər. Bu da ölkəmizdə işsizlik məsələsinin həll olunmasında əsas rol oynayan məsələlərdən biridir.

***-Prezident çıxışında söylədi ki, yerlərdəki rəhbərlərdən tələbim odur ki, iş yerlərinin yaradılmasına çalışsınlar, iş adamlarına şərait yaratsınlar. Regionlarda iş adamları üçün hansı yeni imkanlar yaradıla bilər?***

-Rayonlarda aqrar sektor əsas yer tutur. Kəndlərdə kəndlilərin əsas iş yerləri kənd təsərrüfatı sahəsidir. Kənd təsərrüfatı sahəsində müəyyən qədər çətinliklər varsa, rayon rəhbərliyi həmin məsələlərin həll olunmasında öz dəstəyini göstərməlidir. Digər tərəfdən bölgələr turistlərin cəlb edilməsi baxımından önəmlidir. Yeni istirahət mərkəzlərinin tikilməsi üçün sahibkarlara müraciət olunmalı, onların istəklərinin reallaşdırılmasında süni maneələr yaradılmamalı, onların öz investisiyalarını kəndlərə yönləndirməsi üçün maarifləndirilməli və dəvət edilməlidirlər. Təbii ki, rayonlarda yaşayan insanların əsasən özlərinin yaşadıqları ərazilərdə işlə təmin olunması əsas prioritetlərdən biridir. Həmçinin, regionlarda yeni emal sənayesinin yaradılması həll oluna bilər. Dövlətin dəstəyi təyin olunmuş rəhbərlər tərəfindən müəyyən dairələrə çatdırılmalı, onlar da həmin tapşırıqlara əsasən o dəstək proqramlarından yararlanaraq öz fəaliyyətini qurmalı, müəssisələr açmalı, işlə təminat, məşğulluq məsələlərinin həll olunmasına stimul verməlidirlər.

***Anar Kəlbiyev***

43_27 IYUl-QARA.qxd 11/13/2025 9:16 PM Page 8



# Fuad Nəcəflinin işdən çıxarılmasının pərdəarxası

## Və ya Vasif Talıbovun xələfi olmağı seçməyin acı nəticəsi - İlginc iddialar!

***Noyabrın 12-də Fuad Nəcəfli Prezidentin Naxçıvan Muxtar Respublikasındakı səlahiyyətli nümayəndəsi vəzifəsindən azad olunub. O, ölkə başçısının 2022-ci ilin oktyabrında imzaladığı sərəncamla həmin vəzifəyə təyin edilmişdi.***

Bəs F.Nəcəflinin cəmi 3 il sonra sözügedən postdan kənarlaşdırılmasının səbəbi nədir?

"Unikal"ın əldə etdiyi məlumata görə, Fuad Nəcəfli Naxçıvanda Dövlət Proqramı layihəsini gecikdirdiyinə görə işdən çıxarılıb. Lakin F.Nəcəflinin vəzifədən kənarlaşdırılmasının başqa səbəblərinin də olduğu istisna edilmir.

Mövzu ilə bağlı "Yeni Sabah"a danışan və əslən Naxçıvandan olan deputat Fazil Mustafa bildirib ki, bu addımın arxasında Nəcəflinin fəaliyyətindən narazılıq dayanır: "Ölkə Prezidenti öz səlahiyyətinə uyğun belə bir qərar veribsə, deməli, Fuad Nəcəflinin fəaliyyəti onu qane etməyib. Adətən, işdən çıxarılan şəxsin hansısa vəzifəyə təyin olunması gözlənilir, amma təyin edilməyibsə, görünür, ondan razı qalınmayıb".

Komitə sədri söyləyib ki, Azərbaycan Prezidentinin Naxçıvandakı yeni səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov peşəkarlığı və uğurlu fəaliyyəti ilə fərqlənir: "Aldığım məlumata görə, yeni səlahiyyətli nümayəndə öz sahəsində biliyi və fəaliyyəti ilə seçilir. Çox güman ki, o əvvəlki fəaliyyətindən - Naxçıvan Muxtar Respublikasının Baş nazir işlədiyi dövrdən çatışmazlıqları, narazılıqları bilir. İndi onları düzəltməlidir".

Milli Məclisin Naxçıvandan olan deputatlarından biri Ülviyyə Həmzəyeva isə "Modern.az"a bildirib ki, kimliyindən asılı olmayaraq, dövlət vəzifəsi daşıyan hər bir şəxs fəaliyyətində şəffaflıq, ədalət və insanlara açıq münasibət prinsipini rəhbər tutmalıdır: "Çünki bu prinsiplər xalqla dövlət arasında inam körpüsünün əsasını təşkil edir. Hesab edirəm ki, bu gün qarşıya qoyulan məqsəd şəxslər üzərindən qiymətləndirmə aparmaq yox, dövlət idarəçiliyində yeni keyfiyyət mərhələsinə keçidi təmin etməkdir. Cənab Prezidentin qərarı da məhz bu istiqamətdə atılmış növbəti zəruri addımdır".

Əslən Naxçıvandan olan jurnalist Heydər Oğuz deyib ki, Fuad Nəcəfli Naxçıvanda işə başladığı dövrdən bir sıra qanunsuz tenderlər keçirib, dövlət vəsaitlərini öz yaxınlarına ötürməyə çalışıb: "Tenderlərin qaydalarına əməl edilmədiyi üçün paytaxtdan geri qaytarıldığı və ləğv olunduğu bildirilir. İlk mərhələdə Baş nazirlə əməkdaşlıq çərçivəsində keçirilən 22 tender bir həftə ərzində ləğv olunub. Özü də bunu etiraf etmişdi ki, həmin tenderlər düzgün keçirilməmişdi, qanunauyğun olmadığı üçün ləğv olunub".

Onun sözlərinə görə, Naxçıvanda bir nəfər belə Nəcəflidən razı deyildi: "Naxçıvan öz duzu ilə məşhurlaşan bir bölgədir. Həmin şəxs vəzifədə olan vaxt duz da yoxa çıxdı. Naxçıvanda iqtisadiyyatın bəzi sahələri Fuad Nəcəflinin dövründə ciddi şəkildə yox edilib. Bu isə bölgədə narazılıq yaradıb. Fuad Nəcəflinin vəzifədən azad olunması ilə bağlı qərar doğru və vaxtında atılmış addımdır. Onu vəzifədən azad etməklə kifayətlənmək olmaz və Fuad Nəcəfli qanunsuz əməllərinə görə məhkəmə qarşısında cavab verməlidir".

Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sabiq sədri Sahil Tahirli isə deyib ki, F.Nəcəfli fəaliyyəti dövründə etimadı doğrultmayıb, dövlətin regionun inkişafı ilə bağlı tapşırıqlarını icra edə bilməyib: "İlk növbədə ona görə ki, səlahiyyətli nümayəndə ilk aylarda müəyyən qədər səmərəli işləsə də, ötən 2 il ərzində ona göstərilən böyük etimadı doğrultmadı (baxmayaraq ki, ona həm rəhbərlik, həm də naxçıvanlılar tərəfindən inam və dəstək kifayət qədər idi), verilən tapşırıqları vaxtında yerinə yetirmədi, Naxçıvanın inkişafı ilə bağlı Dövlət Proqramlarını icra edə bilmədi, Naxçıvan kimi strateji əhəmiyyətli bölgənin inkişafını ləngitdi, beləliklə, işsizlik və kütləvi köçə yol açdı!". S.Tahirli sabiq nümayəndənin 3 illik fəaliyyəti və ya fəaliyyətsizliyi ilə bağlı hadisələrin içində olan biri kimi bəzi məqamları sadalayıb. Onun fikrincə, Nəcəfli iş görmək əvəzinə şəkil çəkdirib, daim özünüreklamla məşğul olub, sosial-iqtisadi nəticələr qazana bilməyib, statistikada şişirtməyə yol verib, rəqəmlərlə "oynayıb", öz məsuliyyətini, işlərin zəif gedişini nazir və komitə sədrlərinin adına yazıb onları gözdən salaraq özü həmişə məsuliyyətdən yayınıb, dövlətin yetişdirdiyi peşəkar yerli kadrlar öncə vəzifədən, sonra Naxçıvandan uzaqlaşdırıb, kiçik və orta sahibkarlığın qarşısını öz maddi maraqları naminə alıb, təmsil etdiyi orqanın güclənməsi və nüfuzunun artmasına çalışmayıb, xüsusən, ən mühüm strateji sahələrin inkişafını bloklayıb və s.



Bir sözlə, istər Naxçıvandan olan tanınmış şəxslərin, istərsə də sadə vətəndaşların dediklərindən belə aydın olur ki, Vasif Talıbovun Ali Məclis sədrliyindən uzaqlaşdırılmasının ardından Fuad Nəcəflinin Muxtar Respublikada müsbət mənada ciddi dəyişikliklər yaradacağına inam böyük idi. Lakin həmin gözləntilər özünü doğrultmayıb. Nəcəfli bölgədəki problemləri həll etmək əvəzinə dərinləşdirməklə məşğul olub, Prezidentin nümayəndəsi olaraq ona tapşırılan vəzifələri layiqincə yerinə yetirmək əvəzinə Talıbovun yolu ilə getməyi seçib. Və nəticə etibarilə sonda öz postu ilə vidalaşmalı olub. "Nəcəflinin işdən azad edilməsi yeni məmurlara mesaj kimi də qəbul edilə bilər. Bu o deməkdir ki, əgər Prezidentin etimad göstərdiyi yeni məmurlar da köhnə prinsiplərlə işləməyə üstünlük versələr, qarşılarına qoyulan vəzifələrin öhdəsindən gələ bilməsələr, məsul olduqları bölgədə və ya sahədə problemləri aradan qaldırmaq əvəzinə dərinləşdirmək xətti götürsələr, onlara heç bir güzəşt edilməyəcək, işdən kənarlaşdırılacaqlar" - F.Nəcəflinin cəmi 3 il əvvəl təyin olunduğu postdan uzaqlaşdırılmasını şərh edən ekspertlər bu cür düşünürlər.

*Sənan Mirzə*



## Atası Fazil Mustafaya sui-qəsdə görə ömürlük cəza almışdı, özü isə...

***Milli Məclisin deputatı Fazil Mustafaya qarşı sui-qəsdə görə ömürlük həbs cəzası almış Azər Səricanovun oğlu Əbülfəz Səricanovun barəsində Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) başlanılmış cinayət işi üzrə məhkəmənin yekun prosesi keçirilib.***

"Unikal"ın məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Səbinə Məmmədzadənin sədrliyi ilə keçirilən prosesdə hökm oxunaraq Əbülfəz Səricanov 10 il müddətinə azadlıqdan məhrum edilib.

Qeyd edək ki, Əbülfəz Səricanov DTX tərəfindən həbs edilib.

Ona DTX-də başlanılmış cinayət işi üzrə AR Cinayət Məcəlləsinin 28.277-ci (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə cinayətinə hazırlıq) maddəsi ilə ittiham elan olunub.

*Seymur Əli*

## Nəsiminin yeni icra başçısı bu məşhur şəxsin nəvəsidir

***Xəbər verdiyimiz kimi, Elxan Oqtay oğlu İbrahimov ötən gün Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib. O, Nəsimi rayonunun icra başçısı vəzifəsinə təyin edilib.***

"Unikal"ın əldə etdiyi məlumata görə, E.İbrahimov Şamaxıda ikinci katib, Bərdə, Ağdaş, Daşkəsən və Goranboy rayonlarında isə birinci katib vəzifəsində işləmiş Xəlfə İbrahimovun nəvəsidir. Qeyd edək ki, 1982-ci il təvəllüdlü Elxan İbrahimov 2022-ci ildə Kürdəmirin icra başçısı vəzifəsinə gətirilmişdi. Həmin təyinatadək o, Şamaxının icra başçısının müavini işləyirdi.

*Murad İbrahimli*

## 141 nəfərin diplomu tanınmadı

***Oktyabr ayı üzrə 467 müraciətçinin 326-sı barədə müsbət qərar verilərək müvafiq şəhadətnamələr təqdim edilmiş, 141 nəfərin müraciəti isə mənfi qərarla yekunlaşıb.***

Bu barədə "Unikal"a Təhsildə Keyfiyyət Təminatı Agentliyindən (TKTA) məlumat verilib.

Bildirilib ki, mənfi qərarla yekunlaşan müraciətlərə nümunə olaraq 58 fakt üzrə tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində tələb olunan normativdən az olma, 57 əhəmiyyətli fərq (kredit sayı), 11 tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində tələb olunan normativdən az olma və əhəmiyyətli fərq (kredit sayı), 5 akkreditasiyasız ali təhsil müəssisəsi, 4 təhsilalma forması, 2 autentik (həqiqi) olmayan diplom, 1 akkreditasiyasız ali təhsil müəssisəsi və tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində tələb olunan normativdən az olma, 1 bakalavr diplomu üzrə imtina verilmə, 1 bakalavr diplomu üzrə imtina verilmə və tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində tələb olunan normativdən az olma, 1 əhəmiyyətli fərq və ixtisas uyğunsuzluğunu göstərmək mümkündür.

Ölkələr üzrə Türkiyə Respublikasından 153, Rusiya Federasiyasından 132, Ukraynadan 93, Birləşmiş Krallıqdan 19, Gürcüstandan 15, Polşa Respublikasından 13, Belarus Respublikasından 7, Almaniya Federativ Respublikasından 6, Amerika Birləşmiş Ştatlarından 4, İtaliya Respublikası və Macarıstanın hər birindən 4, Latviya Respublikası və Niderland Krallığının hər birindən 3, Belçika Krallığı, İsveçrə Konfederasiyası və Litva Respublikasının hər birindən 2, Çin Xalq, Konqo, Koreya, Moldova respublikaları və Malayziyanın hər birindən 1 müraciət qeydə alınıb.

Ən çox müraciət olunan ixtisaslara gəlincə, iqtisadiyyat üzrə 48, menecment üzrə 42, maliyyə üzrə 35, biznesin idarə edilməsi üzrə 34, hüquqşünaslıq üzrə 24 müraciət qeydə alınıb.




# Mərkəzi Bank inflyasiya proqnozlarını açıqlayıb

***Oktyabr proqnozlarına əsasən, 2025 və 2026-cı illərdə illik inflyasiyanın hədəf diapazonunda (4±2%) qalacağı proqnozlaşdırılır.***

Bu barədə "Unikal"a Azərbaycan Mərkəzi Bankına (AMB) istinadən xəbər verir.

AMB-nin oktyabr proqnozuna görə, inflyasiya 2025-ci ildə 6.0% təşkil edəcək. 2025-ci ilin illik inflyasiya proqnozuna ev təsərrüfatlarının istehlakının 1.57 faiz bəndi, kənd təsərrüfatı istehsalçıları qiymətlərinin (KİQİ) 3.64 faiz bəndi, ticarət tərəfdaşlarında inflyasiyanın 2.80 faiz bəndi və sərnişindaşıma tarifinin artımının 0.14 faiz bəndi artırıcı təsir edəcəyi gözlənilir. Dövlət istehlakının -0.44 faiz bəndi, nominal effektiv məzənnənin (NEM) -0.34 faiz bəndi və digər amillərin (gözləntilər) isə -1.37 faiz bəndi azaldıcı töhfəsi gözlənilir.

Oktyabr proqnozuna əsasən, 2026-cı ilə inflyasiyanın 5.7% təşkil edəcəyi gözlənilir. Qiymətləndirmələrə görə 2026-cı ildə proqnozlaşdırılan illik inflyasiyaya dövlət istehlakı 0.11 faiz bəndi, ev təsərrüfatlarının istehlakı 1.11 faiz bəndi, KİQİ 3.16 faiz bəndi, ticarət tərəfdaşlarında inflyasiya 2.0 faiz bəndi. və digər amillər 1.48 faiz bəndi artırıcı, NEM isə -2.16 faiz bəndi azaldıcı təsir edəcək.

Məlumatda vurğulanıb ki, proqnozların reallaşması bir sıra xarici və daxili amillərin dəyişimindən asılı olacaq.

"Qlobal iqtisadiyyatda geosiyasi gərginliyin yüksək qalması, qlobal fraqmentasiya və tariflər üzrə ticarət müharibələri şəraitində əmtəə və maliyyə bazarlarında dalğalanmalar inflyasiyaya artırıcı təsirə səbəb ola bilər. Ticarət tərəfdaşlarında inflyasiya səviyyəsindən əlavə nominal effektiv məzənnənin mümkün ucuzlaşması da inflyasiya üzrə xarici risk faktorlarındandır. Eyni zamanda, qlobal iqlim dəyişiklikləri məhsuldarlığa və qlobal ərzaq istehsalına təsir edə bilər. Daxili faktorlardan inflyasiyanı artıra biləcək başlıca risk amili isə yerli xərc amillərinin aktivləşməsi ilə əlaqədardır", - məlumatda qeyd edilib.

# Göygölün yeni icra başçısı yüksək vəzifəli şəxsin oğludur





***Ölkə başçısının dünən imzaladığı sərəncamla Vüqar Vahid oğlu Novruzov Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib. Digər sərəncamla o, Göygöl Rayon İcra Hakimiyyətinin başçısı təyin olunub.***

"Unikal" Modern.az-a istinadən xəbər verir ki, Vüqar Novruzov yüksək vəzifəli məmurun oğludur. Belə ki, onun atası Vahid Novruzov Azərbaycan Respublikası Auditorlar Palatasının sədri vəzifəsində çalışır.

75 yaşlı Vahid Novruzov iqtisad elmləri doktoru, professordur. O, 1996-cı il aprelin 5-dən indiyə kimi Azərbaycan Respublikası Auditorlar Palatasının sədri vəzifəsində işləyir.

# Generala ağır itki

***Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi İlqar Musayevə ağır itki üz verib.***

"Unikal" xəbər verir ki, general-leytenantın atası Əli Musayev vəfat edib.

# Ramiz Mehdiyevin daha bir kadrı səksəkədə

## 21 ilin icra başçısı yola salınması gözlənilən rayon rəhbərləri siyahısında ilk pillədə dayanır - Vidadi İsayev niyə narahatdır?

***Yaxın vaxtlarda Ramiz Mehdiyevin Prezident Administrasiyasının rəhbəri olduğu dövrdə təyin edilən bir neçə icra başçısının vəzifəsi ilə vidalaşacağı gözlənilir. Bir müddət əvvəl yayılan məlumatlarda vurğulanırdı ki, həmin icra başçıları Mehdiyevin təlimatları ilə hərəkət edərək daim ona sadiq olduqlarını göstəriblər. Xüsusilə yaşlı və uzun müddət vəzifədə olan icra başçılarının əksəriyyəti məhz Mehdiyevin kadrı kimi tanınıb. Belə kadrlarla yolların ayrılması artıq labüd görünür.***

Həmin sırada adı çəkilənlərdən biri Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayevdir. O, 2005-2011-ci illərdə Tərtər rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində çalışıb, 2011-ci ilin martından isə Bərdə rayonuna rəhbərlik edir.



İsayevin karyera yüksəlişi əksər sabiq məmurların bir çoxu kimi qəfil və sürətli olub. 1986-2004-cü illərdə Yevlaxda arxiv müdiri və cəmi bir il sonra (2004-2005) Yevlaxda icra başçısının müavini işlədikdən sonra 21 ildir davam edən icra başçılığı karyerasına qədəm qoyub.

Xüsusilə Bərdə Rayon İcra Hakimiyyətinin rəhbəri təyin edildikdən qısa müddət sonra isə onun haqqında saysız-hesabsız ittihamlar səsləndirilməyə başlanılıb. "Bərdə camaatı hansısa rayonun başçısı həbs ediləndə dərhal ümidlənir. Onların çoxdan gözləntisi var ki, növbə İsayevə çatacaq. Çünki icra başçısı Bərdədə böyükdən kiçiyə, sahibkardan fermerə qədər hamıya "qan uddurub". O, nə şəhid ailəsi nəzərə alıb, nə aztəminatlı ailə nədir dəyər verib, yaşıllıq bilməyib, boş sahə qoymayıb, hara gözünə göründü satıb qurtarıb, iş adamlarının gününü qara edib və bu minvalla varlanıb. Bərdədə və ətraf ərazilərdə, o cümlədən Bakıda saysız-hesabsız obyektlər, villalar, avtomobil kolleksiyası, biznes subyektləri sahibinə çevrilib. Bəs bu pulları başçı maaşı ilə qazanmaq olardımı?" - bir müddət öncə yerli media yazmışdı.

Ötən il isə KİV-də Vidadi İsayevə töhmət verildiyi barədə məlumat yer almışdı. Məlumatda deyilirdi ki, buna səbəb icra başçısının rayonda qanunsuz tikililərə göz yummasıdır. O da bildirilirdi ki, FHN və Arxitektura və Şəhərsalma Komitəsinin birgə yoxlaması zamanı Bərdədə çoxsaylı belə tikililər aşkarlanıb.

2020-ci ildə, Azərbaycanda bəzi icra başçılarının ard-arda həbs edildiyi bir vaxtda isə V.İsayevin vəzifəsindən azad olunduğuna dair xəbər yayılmışdı. Lakin sonradan həmin məlumat təsdiqini tapmamışdı. Elə həmin il onun koronavirus pandemiyası ilə bağlı elan edilən karantin günlərində oğlu Tural İsayevə toy etməsi ilə bağlı xəbər geniş rezonans doğurmuşdu. Həmin vaxt bildirilirdi ki, başçı öz oğluna toyu Yevlax şəhərindəki villasında təşkil edib, məclisə çoxsaylı qonaqlar qatılıb. Lakin İsayev bu xəbəri təkzib etmişdi. O, oğlunun 2019-cu ildə nişanlandığını bildirib demişdi ki: "Pandemiya ilə əlaqədar real vəziyyəti nəzərə alaraq hər iki ailənin və gənclərin öz razılığı ilə yalnız hər iki gənc VVAQ şöbəsinə gedərək nikahlarını rəsmiləşdirib və ailə qurublar. Heç bir mərasim, hətta ailə mərasimi belə keçirilməyib. Yazılanlar real vəziyyəti əks etdirmir. Bu addımın da gələcəkdə toy etmək istəyən gənclər üçün nümunəvi addım olacağını düşünürük". Lakin bir sıra qaynaqlar icra başçısının təkzibini inandırıcılıqdan uzaq adlandıraraq toyun təşkil edildiyi barədə iddiada israr etmişdilər.

Əlbəttə, İsayevlə bağlı əsas iddialar onun icra başçısı olduğu müddətdə kifayət qədər varlandığı, vətəndaş şikayətlərinə və müraciətlərinə laqeyd yanaşdığı, onları incitdiyi, yerli sahibkarlara zülm etdiyi, rayondakı mühüm vəzifələrin bir çoxuna isə qohum-əqrəbasını, yaxın adamlarını gətirdiyi ilə bağlıdır. İnternet üzərindən kiçik bir axtarış aparmaq kifayətdir ki, bu deyilənlərdə həqiqət payının yüksək olduğunu düşünməyə əsas verən çox sayda fakt, ittiham və giley-güzarla qarşılaşasan.

Digər tərəfdən, bir neçə il əvvəl V.İsayevin sərvəti haqqında ölkə mediasında uzun-uzadı bir siyahı yayılmışdı. Həmin siyahı belə idi: Bakı, A. Bakıxanov, ev 39 ünvanında xidməti mənzil; H.Zərdabi 3153-cü məhəllə, ev 7-də xidməti mənzil; Şərq küç, ev 11B ünvanında xidməti mənzil; oğlunun adına rəsmiləşdirilən 100.000 manatlıq çayxana; kürəkəninə məxsus Qaçqın Şəhərciyində ümumi sahəsi 100 kv.metr olan dükan; "Ana və Uşaq" kafesi; "Təchizat BCS" MMC şirkəti; Bərdədə ikimərtəbəli mağaza; Mixaylovka kəndində bir imarət; Ağcakənddə ikinci böyük villa; Xətai rayonu, Babək prospektində 4 mərtəbəli malikanə; 90-GP-555 dövlət nişanlı Toyota Prado; Mercedes G63 AMG; Bərdədə Heydər Əliyev parkında kafe; Yevlaxda əzəmətli villa; Yevlax-Bərdə yolunun üstündə balıq vətəgələri; Yevlaxda, Bərdədə, Tərtərdə hektarla torpaq sahələri, iaşə obyektləri, mənzillər; Rusiyada, Türkiyədə biznes və obyektlər.

66 yaşlı V.İsayev özü barədə qalmaqallı iddiaların çoxu kimi, topdağıtmaz sərvəti barədə yayılan məlumatları da nə təsdiq, nə də təkzib edib.

Onun fəaliyyətindən bərdəlilərin narazılığını, bir rayonda 15 ilə yaxın icra başçısı olaraq qaldığını, eləcə də artıq son akkordları vurulan köhnə məmur korpusu ilə sıx bağlılığını nəzərə aldıqda İsayevin də "Ramiz Mehdiyev işi" səbəbindən işsiz qalmaq ehtimalı kifayət qədər yüksəkdir.

***Toğrul Əliyev***

43_27 IYUl-QARA.qxd 11/13/2025 9:17 PM Page 10



# Sahil Babayev yenidən tənqid hədəfində

## Yeni nazir vəzifəsində yeni “qurban”: kino - Növbədə nə var?



***Gələn il Azərbaycan kinosu pulsuz qalacaq. Belə ki, növbəti ilin büdcəsində Azərbaycan Respublikası Kino Agentliyinə vəsait ayrılması nəzərdə tutulmayıb. Belə ki, Milli Məclisin Mədəniyyət komitəsinin sədri, deputat Polad Bülbüloğlu 2026-cı il üçün kino sahəsinə pul ayrılmadığını bildirib. Sədr bunun Azərbaycan kinosunun gələcəyi üçün təhlükəli olduğunu deyib.***

”Mədəniyyət sahəsi elə sahədir ki, nə qədər pul ayırsan da, çatmayacaq. Pulun ayrılmaması kino mütəxəssislərinin başqa sahələrə yönəlməsinə gətirib çıxaracaq” - Bülbüloğlu əlavə edib.

Milli Məclis sədrinin müavini Rafael Hüseynov komitə sədri ilə həmrəylik nümayiş etdirib. O bildirib ki, kino Azərbaycan üçün çox vacibdir. Sitat: “Azərbaycanda kino sənayesinin inkişafı ilə bağlı istiqamətlər çoxdur. Onu da demək olar ki, kino dayanacaq. Ayrı-ayrı özəl şirkətlər, qurumlar istiqamətində də kino inkişaf edir. Sadəcə gələcəkdə kinonun inkişafı üçün kino xadimlərinə, işçilərinə qurğuların gətirilməsi, vergilərdən azad etmə və s. bu kimi müəyyən imtiyazların verilməsi vacibdir. Tibb, idman və digər bu kimi sahələrdə oxşar praktika var”.

Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini Günay Əfəndiyeva da çıxışında vurğulayıb ki, bu il dövlət büdcəsindən kino sahəsinə vəsaitin ayrılmaması müəyyən narahatlıq doğurur. Sitat: “Kino sahəsi mədəniyyətimizin tərkib hissəsi kimi yaradıcılıq yönü ilə yanaşı, həm də ideoloji, mənəvi və informasiya gücü ilə ön plandadır. Kino həm gənclərimizin dünyagörüşü, həm milli kimliyimizin təbliği, həm də Azərbaycanın beynəlxalq imicinə birbaşa təsir göstərən vasitədir”.

Xalq artisti Rasim Balayev isə Qaynarinfo-ya açıqlamasında gələn il büdcədən kinoya vəsait ayrılmamasından təəssüfləndiyini bildirib: ”Xəstəyəm, olanlardan məlumatsızam, amma hər halda ayırsalar daha yaxşı olar”.

Kinoşünas, Əməkdar incəsənət xadimi Ayaz Salayev deyib ki, kino sənəti xalqın güzgüsüdür: ”Kino milli mədəniyyətin bir hissəsi olmalıdır. Kinonu kommersiya relslərinə qoymaq onu məhv etmək deməkdir. Mən Polad müəllimin sözləri ilə razıyam. Kino inkişaf etməlidir. Kino yalnız ekran qarşısında gördüyümüz aktyor və rejissorlarla məhdudlaşmır. Bu sahənin görünməyən qəhrəmanları - səs rejissorları, montajçılar, işıq mütəxəssisləri, rəqəmsal texniki heyət - bu industriyanın dayanıqlı inkişafında önəmli rol oynayır. Kino mütəxəssislərinin hazırlanması və sahənin institusional şəkildə dəstəklənməsi vacibdir”.

Tanınmış rejissor Hüseyn Mehdiyev də deputatlardan Polad Bülbüloğlu və Rafael Hüseynovun kino və mədəniyyət sahəsinə ayrılan vəsaitin azlığından şikayətlərini dəstəkləyib. Sitat: ”Cəmiyyətimizdə mənəviyyatın və əxlaqi dəyərlərin formalaşmasında və qorunmasında mədəniyyətin və kinonun rolu əvəzsizdir. Kimlərə isə bu dəyərlər mane olur. Bu belə də davam edəcək, ta ki torpaqlarımızı azad edən o ”YUMRUQ” kinomuzu məhvə aparanların başına dəyməyincə... çünki onlar üzdə deyillər və bir deyil, iki deyil yüzlərlədir”.

Mədəniyyət Nazirliyi isə məsələyə daha geniş aspektdən yanaşıb və gələn il kinoya pul ayrılmamasının bu sahədə müşahidə olunan inkişaf dinamikasını tormozlayacağından narahatlığını ifadə edib. Mədəniyyət nazirinin müavini Fərid Cəfərov Milli Məclisdəki çıxışında növbəti il üçün ARKA-ya vəsait ayrılmamasının təsirlərindən danışarkən deyib ki, son iki il ərzində Azərbaycan kino sənayesi keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. “ARKA Prezidentin 2022-ci il 20 aprel tarixli Fərmanı ilə yaradılıb və 2023-cü ildən fəaliyyətə başlayaraq, milli kino sektorunun canlanmasına mühüm təkan verib... Kino sənayesində bu canlanma 1570 müvəqqəti iş yeri yaradıb, 2026-cı il üçün planlaşdırılan layihələr isə əlavə 800 iş yeri formalaşdıracaq. 2025-ci ildən filmlərin yayım hüquqlarının satışına başlanılıb. Yerli telekanallarla imzalanan ilk yayım paketi 11 film üzrə 100 min manat dəyərindədir. Azərbaycan filmləri artıq Kann və Venesiya kimi nüfuzlu festivallarda nümayiş olunur... 2023-2025-ci illərdə ARKA-nın dəstəyi ilə ölkədə çəkilən xarici layihələr nəticəsində 10 milyon ABŞ dolları məbləğində vəsait ölkə iqtisadiyyatına daxil olub. Prezidentin 2025-ci il 29 may tarixli sərəncamı ilə təsdiqlənən “xərclərin qismən geri ödənilməsi (rebate)” mexanizmi xarici istehsalçıların marağını daha da artırıb. Bu sistemin tətbiqi növbəti üç ildə ölkəyə 50 milyon dollara yaxın investisiya cəlb edilməsi ilə nəticələnə bilər... 2026-cı il dövlət büdcəsində kino sənayesinə vəsait ayrılmaması, əldə olunmuş inkişaf dinamikasının dayanmasına, “rebate” mexanizminin tətbiqinin ləngiməsinə və Azərbaycanın qlobal innovasiya indeksində mövqeyinin zəifləməsinə səbəb ola bilər. Hazırda ARKA-nın hesabında qalan 4,5 milyon manat yalnız davam edən layihələrin maliyyələşdirilməsinə yönəlib. Bu səbəbdən, dövlət dəstəyinin davamlılığı kino sənayesinin sabit inkişafı üçün həlledici əhəmiyyət daşıyır”.

Maliyyə Nazirliyi isə kino ictimaiyyətinin məsələ ilə bağlı haqlı etirazları qarşısında konkret arqument gətirməkdə çətinlik çəkir. Maliyyə nazirinin müavini Himalay Məmişov Milli Məclisin Gənclər və idman, İctimai birliklər və dini qurumlar, Mədəniyyət komitələrinin birgə iclasında bildirib ki, cari ildə agentliyə büdcədən 8,5 milyon manat ayrılıb. İndiyə qədər həmin vəsaitin 3,5 milyon manatı istifadə olunub. Hələ 5 milyon manat istifadə olunmamış qalıq var. Üstəlik, bu ilin əvvəlinə qurumun 11,5 milyon manat istifadə olunmamış vəsaiti olub. O əlavə edib ki, kino sahəsində müxtəlif vergi güzəştləri tətbiq olunur: film istehsalı və dublyaj gəlirləri 90 % mənfəət vergisindən azaddır, kino sahəsində torpaq və əmlak vergisi bu ildən 5 il müddətinə ləğv edilib, müəllif hüquqlarına görə royalti vergisinə güzəşt tətbiq edilir, film nümayişi üçün keşbək mexanizmi mövcuddur. Belə çıxır ki, Sahil Babayevin rəhbərlik etdiyi nazirlikdə bir neçə milyon manatlıq büdcəni və bir neçə kiçik imtiyazı, hətta film nümayişi üçün keşbək mexanizmini belə, kino kimi mühüm bir sahənin dirçəlişi üçün yetərli sayırlar. Əcəba, Maliyyə Nazirliyində kimsə müasir kinematoqrafiya ilə bağlı hansısa təsəvvürlərə malikdirmi, ən azından kinoya ayrılan vəsaiti dayandırmaq qərarına gəlməzdən öncə həmin təsəvvürə sahib olmaq üçün araşdırma, kino ictimaiyyəti ilə müzakirə, məsləhətləşmə aparılıbmı?

Qeyd edək ki, Sahil Babayev hələ əmək və əhalinin sosial müdafiəsi naziri işləyərkən onun ictimai etiraz, müxtəlif təbəqələrdə narazılıq yaratmağı sevən fiqur olduğu hiss edilirdi. Həmin vaxt əlillik dərəcələrinin ucdantutma ləğvi cəmiyyətdə kəskin tənqidlə qarşılanmışdı. Babayev o vaxt bu addımını “büdcə vəsaitlərinə qənaət” prinsipi ilə əsaslandırırdı. Lakin sonradan məlum oldu ki, görmə, yerimə imkanından məhrum şəxslərə belə, əlillik pensiyasını çox görən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində (ƏƏSMN) on milyonlarla manatlıq şübhəli tenderlərin biri bir qəpikdir.

İndi isə Sahil müəllim maliyyə naziri postundadır və görünür, yenə də “büdcə vəsaitlərinə qənaət” prinsipi ilə dövlətin müxtəlif sahələrə illərdir göstərdiyi qayğını, büdcə dəstəyini “kəsib-doğramaq” yolunu seçib. Sonrası...

Sonrası ƏƏSMN-dəki təcrübədən bəllidir!

***Toğrul Əliyev***



## ”Bu, dövlət qayğısının göstəricisidir ” - Vitse-spiker

***“Əgər məktəbə öz işini yaxşı bilən şəxs direktor təyin edilərsə, o zaman bu sahədə narahatlıqlar indiki səviyyədə olmayacaq. Təhsilin sağlamlaşdırılmasından ötrü Təhsil Nazirliyinin keçirdiyi sertifikasiya imtahanları ədalətli üsul kimi əhəmiyyətli olsa da, regional təhsil idarələri, şöbələri, məktəb direktorları dərslərin keyfiyyətini yaxşılaşdırmaqdan ötrü səylə çalışmalıdırlar”.***

”Unikal” xəbər verir ki, bunu Milli Məclisdə ”2026-cı il dövlət büdcəsi haqqında” qanun layihəsinin müzakirəsi zamanı vitse-spiker Musa Qasımlı deyib.

O bildirib ki, gələn il dövlət sifarişi və dövlət hesabına təhsil alanların sayının 5 min 210 nəfərdən artaraq 1150 min 102 nəfərə, təqaüd alanların sayının 7 min 520 nəfərdən artaraq 121 min 280 nəfərə çatdırılması dövlət qayğısının göstəricisidir: ”Bundan başqa, yaranmış şərait universitetlərimizin xarici ölkələr üçün mütəxəssis hazırlaması, ölkəmizə gələn turistlərin sayının artırılması üçün yeni imkanlar açır. Bu, böyük siyasi əhəmiyyəti ilə yanaşı ölkəmizə həm də əlavə vəsait gətirər. Bilirsiniz ki, hər il ölkəmizdə “Xaricdə təhsil” sərgiləri keçirilir. Azərbaycanlı gənclər attestatla müxtəlif universitetlərdə təhsil almağa gedir, ölkəmizdə qazanılan vəsait xaricə axır, azərbaycanlı ailələr həmin universitetlər üçün belə demək mümkünsə, sponsora çevrilirlər. Verilən bəzi diplomların tanınmaması da sonradan problemlər yaradır. Azərbaycanda ali təhsil almağı təbliğ və təşviq etməkdən ötrü səfirliklərimizdəki təhsil və mədəniyyət müşavirlərinin fəaliyyətini daha da genişləndirməsinin zəruriliyi şübhə doğurmamalıdır”.

***Anar Kəlbiyev***

## Nazir Rəşad Nəbiyev Vibke Şlomer ilə görüşdü

***Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Beynəlxalq Maliyyə Korporasiyasının Qərbi Balkan və Cənubi Qafqaz ölkələri üzrə direktoru Vibke Şlomer ilə görüşüb.***



”Unikal” xəbər verir ki, görüş zamanı AZCON Holding-ə daxil olan şirkətlərin fəaliyyət istiqamətləri və həyata keçirdikləri layihələr barədə ətraflı məlumat verilib. Orta Dəhlizin inkişafı və Xəzər keçidləri ilə bağlı qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib.

Həmçinin ictimai nəqliyyat, hava nəqliyyatı, AZAL və Bakı Gəmiqayırma Zavodu üzrə mümkün tərəfdaşlıq sahələri, eləcə də bu şirkətlərə gələcəkdə özəl investorların cəlbi perspektivləri barədə fikir mübadiləsi aparılıb.

43_27 IYUl-QARA.qxd 11/13/2025 9:17 PM Page 11



# Milli dəyərlərimizə sahib çıxaq

***Azərbaycan cəmiyyəti bu gün elə bir mərhələdədir ki, müasirlik-inkişaf və milli dəyərlərin qorunması arasında həssas, lakin gərgin bir mübarizə gedir.***



Cəmiyyətin inkişafı təkcə elm, texnologiya və s. irəliləməsi ilə ölçülmür; inkişafın digər tərəfi də dəyərlər sistemində olan dəyişikliklər sayılır. Texnologiyanın inkişafı, sosial şəbəkələrdən, internetdən istifadə kimi xarici təsirlər gənclərin düşüncə və həyat tərzinə, geyiminə, ən əsası isə danışıq tərzinə birbaşa təsir edir. Digər tərəfdən isə əsrlərlə formalaşmış Azərbaycan milli-mənəvi dəyərləri, adət-ənənələri hələ də cəmiyyətin əsasını təşkil edir və qorunub saxlanmağa çalışılır.

Bu iki istiqamət arasındakı toqquşma zaman-zaman zəruri müzakirələr, hətta sosial qarşıdurmalar belə yaradır. Əslində isə müasirlik milli kimliyi və dəyərləri yox etmək deyil, onu yeni şəraitə uyğunlaşdırmaqdır. Problem isə ondadır ki, "uyğunlaşmaya" uyğunlaşa bilmirik: ya müasirliyi inkar etmək istəyirik, ya da müasirləşmək adı ilə milli kimliyimizi itiririk. Nəzərə almaq lazımdır ki, bizim "müasirləşmək, avropalaşmaq və Avropaya inteqrasiya" kimi ifadələrdə işlətdiyimiz Avropa da inkişaf edir, ancaq öz milli kimliyini və dilini qoruyaraq.

Doğrudur, müasirləşmənin bəzi mental dəyərlərə müsbət təsiri olub. Keçmişdə qadınların erkən nikaha cəlb edilməsi, qız övladları dünyaya gətirən qadınların günahlandırılması, hətta qız uşaqlarının öldürülməsi kimi neqativ düşüncələr zamanla müəyyən qədər aradan qalxmağa başladı. Ancaq bununla yanaşı, qorunmalı olan bir çox müsbət milli dəyərlərin tədricən itirilməsi Azərbaycan üçün mənfi haldır. Buna ən bariz nümunə isə danışıq dilindəki dəyişikliklərdir. Müasirləşmə prosesi artdıqca ana dilimizdən istifadə də azalır. Müasirləşmə ,əlbəttə, müsbətdir, ancaq öz dilini və kimliyini qoruyaraq.

Prezident İlham Əliyev də AMEA-nın 80 illik yubileyindəki çıxışında bu mövzuya toxunaraq bildirmişdi ki, bəzi yerlərdə ədəbi dilimiz itirilir, məişət dili kimi istifadə olunur və xarici kəlmələrlə dolu olur. Ona görə də biz öz dilimizi qorumasaq, onda yavaş-yavaş dilimizi itirə bilərik. İlham Əliyevin də dediyi kimi: "Əgər Azərbaycan dilində əzəli bir kəlmə varsa, başqa dildən kəlməni gətirib əvəzləmək nə məqsəd daşıyır? Bu, ya səhvdir, ya təxribatdır. Hər ikisi də qəbuledilməzdir."

Bu problem təkcə bu günə aid deyil. Hətta bir əsr əvvəl Cəlil Məmmədquluzadə "Anamın kitabı" əsərində eyni məsələni qaldırmışdı. Əsərdə soykökündən uzaqlaşmağın acı nəticələri, milli birliyin əhəmiyyəti və bu kimi məsələlər təsvir olunmuşdur. Qardaşların xaricdə təhsil almalarına baxmayaraq, vətənə fayda verən kamil insanlar kimi qayıtmamaları, hər birinin təhsil aldığı ölkənin düşüncə tərzi ilə geri dönməsi, öz milli köklərindən ayrılmaları və vətən naminə birləşmək zərurətini anlamamaları onların faciəsdir. Bacılarının onların kitablarını yandırması isə milli dəyərlərin itirlməsinə qarşı etirazın simvolu idi.

Gəlin, biz də müasirliyin soyuğunda isinmək üçün deyil, köklərimizi yaşatmaq üçün bir alov yandıraq və milli dəyərlərimizə sahib çıxaq.

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının 4-cü kurs tələbəsi***

# Toy oliqarxlarının millətə tutduğu toy...

## Bəzi şadlıq sarayları genefondumuzu necə təhlükəyə atır? - Şok faktlar

***Son günlər Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən aparılan nəzarət tədbirləri zamanı bəzi ictimai iaşə müəssisələrində və şadlıq saraylarında mənşəyi məlum olmayan, eləcə də baytarlıq arayışı və ya baytarlıq şəhadətnaməsi olmayan ət məhsullarının istifadəsi faktları aşkarlanıb. Bu barədə bir müddət öncə AQTA məlumat yayıb.***

Bildirilir ki, qida təhlükəsizliyi tələblərinə görə, eyni zamanda dünyada yayılan yoluxucu heyvan xəstəliklərini nəzərə alaraq, mənşə və keyfiyyəti təsdiqlənməyən heyvan mənşəli məhsulların istehdan narahatlıq doğurduğu qənaətindədir. AQTA-nın yuxarıdakı məlumatı isə həmin narahatlığın əsassız olmadığını göstərir.

Digər tərəfdən, son vaxtlar Azərbaycanda dabaq (ağız və dırnaq) xəstəliyinin yayılma halları artmaqdadır. Bu səbəbdən cəmiyyətdə ət məhsullarının satışı və təhlükəsizliyi ilə bağlı narahatlıqlar yaranıb. Düzdür, əlaqədar qurumlar önləyici tədbirlərin, xüsusilə də həmin xəstəliyə yoluxmuş heyvanların satışı və kəsimi ilə bağlı fəaliyyətin gücləndirildiyini deyirlər, lakin bu da bir faktdır ki, bəzi iaşə müəssisələrinin sahibləri üçün nəyin bahasına olur olsun pul qazanmaq başlıca prinşadlıq saraylarından tutmuş dönərxanalaradək hər yerdə qiymətlər qalxırdı! O zamanlar Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov da açıq şəkildə bildirmişdi ki, restoranlar, şadlıq sarayları "leş əti mafiyası"nın əsas müştərilərindəndir. Sitat: "Bəzən deyirlər ki, "leş mafiyası" kolbasa sexləri ilə işləyir. Xeyr. Təkcə kolbasa sexləri deyil. Onlar restoranlar, şadlıq sarayları, kafelərlə də işləyir. Hətta deyərdim ki, onların mallarını daha çox restoran və kafelər alır".

Ekspert bildirmişdi ki, nə "leş əti mafiyası", nə də bir çox restoran və şadlıq evi sahibləri üçün müqəddəs heç nə yoxdur, onlar-



laka təqdim edilməsi qanunvericiliklə qadağandır və bu hallar insan sağlamlığı üçün ciddi təhlükə yaradır. Bununla bağlı AQTA tərəfindən ictimai iaşə müəssisələrinə bildiriş məktubları ünvanlanıb və məsul şəxslərə yalnız mənşəyi və keyfiyyəti sənədlərlə təsdiqlənmiş ət məhsullarından istifadə etmələri bir daha xatırladılıb. Hazırda Agentlik respublika üzrə ictimai iaşə obyektlərində və şadlıq saraylarında nəzarət tədbirlərini gücləndirib. Qanunvericiliyin tələblərinə əməl etməyən müəssisələr barəsində inzibati tədbirlər görülür. Eyni zamanda, Agentlik istehlakçıları heyvan mənşəli ət məhsulları alarkən və ya ictimai iaşə müəssisələrində istehlak edərkən, müvafiq baytarlıq sənədlərinin mövcudluğunu tələb etməyə çağırır.

Qeyd edək ki, şadlıq saraylarında verilən yeməklərin və içkilərin keyfiyyəti uzun müddətdir ki, müzakirə mövzusudur. Bir çox ekspertlər həmin yeməklərin və içkilərin qida təhlükəsizliyi baxımınsipdir. Belədə isə xüsusən şadlıq evlərində yoxlamaların intensivləşdirilməsinə ciddi zərurət yaranır. Hər halda vətəndaşlara mənşəyi məlum olmayan ət yedirməyə çəkinməyənlərdən nə desən gözləmək mümkündür!

Hər halda paytaxtın məşhur "Yeganə" şadlıq sarayında baş verən rəzaləti unutmamışıq: 2023-cü ildə orada insan sağlamlığı üçün ciddi təhlükə yaradacaq leş əti aşkarlanmışdı. Həmin vaxt bu barədə yazan "Gunsesi.info" bildirirdi ki, restoranın sahibi olan və adı daha əvvəl bir neçə qalmaqallı cinayət işləri ilə gündəmə gələn Arif Rəhimovun obyektində qızdırmadan tələf olan heyvanların ətini şadlıq evinin rəhbərliyi toy məclisində insanlara yedirirmiş.

Üstəlik, ötən illərdə "leş əti mafiyası" ilə bağlı həbslər də yaxşı yadımızdadır. "Leş Elçin", "Leş Əli", "Leş Tofiq" kimi tanınan şəxslərin saxlanılmasından sonra nə sirri-xudadırsa restoranlardan, dan əhalinin sağlamlığı və qida təhlükəsizliyi baxımından istənilən pisliyi gözləmək olar: "Leş əti mafiyası ilə əlaqədə olan restoranlar, şadlıq sarayları və kafelərin adları ictimaiyyətə açıqlanmalıdır. Onlar cinayət məsuliyyətinə cəlb edilməklə yanaşı, ictimai qınağa da tuş gəlməlidir".

Bir sözlə, problem kifayət qədər aktual, elə bir o qədər də qorxuncdur. Söhbət milyonlarla insanın sağlamlığından, üstəlik, genefondumuzun təhlükəyə atılmasından gedir. Unutmayaq ki, kimlərsə "qaz vurub qazan doldurmaq" sevdası ilə yalnız qanunları deyil, əxlaqi dəyərləri də ayaqlar altına ataraq əhaliyə keyfiyyətsiz qidalar, o cümlədən mənşəyi məlum olmayan, yaxud leş ətlər yedirməsi yalnız bizim sağlamlığımızı zəhərləmir, eyni zamanda gələcək nəsillərin də sağlamlığına ağır zərbə vurur. Odur ki, belə işbazlara qarşı daha sərt, daha amansız mübarizə qaçılmaz zərurətdir!!!

***Sənan Mirzə***

43_27 IYUl-QARA.qxd 11/13/2025 9:17 PM Page 12



**5.3.5. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması;**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# İnsanlıq əleyhinə törədilən ağır cinayətlərin hesabı sorulacaq

## Pərvin Qasımova: "Əminəm ki, bunu edənlər bir gün beynəlxalq məhkəmələrdə də ağır cəza alacaqlar"



***44 gün davam edən Vətən müharibəsi Azərbaycan tarixinin ən şanlı səhifələrindən biridir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu uzun illər işğal altında qalan torpaqlarımızı azad edərək tarixi ədaləti və beynəlxalq hüququ bərpa etdi. Azərbaycan xalqı bu gün həmin Zəfərin qürurunu yaşayır və bu günlərdə möhtəşəm qələbənin ildönümünü böyük sevinc və fəxarətlə qeyd edilər.***

Şübhəsiz ki, Vətən müharibəsində qazanılan qələbənin əsas amillərindən biri Ali Baş Komandanın siyasi uzaqgörənliyi, diplomatik çevikliyi və strateji qərarvermə qabiliyyəti idi. Prezident İlham Əliyev həm döyüş meydanında, həm də informasiya cəbhəsində ölkəni inamla irəli apararaq xalqın səfərbərlik ruhunu qorumağı və möhkəmləndirməyi bacardı.

Lakin Ermənistan silahlı qüvvələri müharibə dövründə və ondan əvvəl beynəlxalq humanitar hüququ kobud şəkildə pozaraq mülki əhalini və yaşayış obyektlərini məqsədli şəkildə hədəfə aldı. Gəncə, Bərdə, Tərtər, Naftalan kimi şəhərlərin "Smerç" və "İskəndər-M" raketləri ilə atəşə tutulması müharibə cinayətləri kateqoriyasına daxildir. Təəssüf ki, bu cinayətlər beynəlxalq hüquq səviyyəsində hələ də lazımi qiymətini almayıb və cinayətkarlar məsuliyyətə cəlb edilməyiblər.

Ermənistanın mülki əhaliyə qarşı həyata keçirdiyi bu hücumlar nəticəsində onlarla qadın, uşaq və qoca həyatını itirdi, yüzlərlə insan yaralandı, minlərlə ev və infrastruktur obyekti dağıldı.

Bu insanlıq əleyhinə cinayətin qurbanlarından biri də Gəncə sakini Pərvin Qasımovadır.

Oktyabrın 17-də baş verən Gəncə terroru zamanı iki gözünü itirən Pərvin Qasımova "Unikal" qəzetinə müsahibəsində düşmənin törətdiyi terrorun həyatını necə dəyişdirdiyini ürək ağrısı ilə danışıb: "Hər oktyabr ayı mən o dəhşətli günü xatırlayıram. Gözlərim təkcə mənim dünyaya baxan nurum yox, balalarımın da işığı idi. Ermənistanın atdığı raket bizim işığımızı əlimizdən aldı. İndi mənim tək istədiyim bu canilərin cəzalandırılmasıdır. Çox təəssüf ki, dünya dövlətləri bu insanlıq əleyhinə cinayəti görsə də susur. Amma mən öz dövlətimizə güvənirəm. Əminəm ki, bunu edənlər bir gün beynəlxalq məhkəmələrdə də ağır cəza alacaqlar. Biz bu günlərdə möhtəşəm qələbəmizin ildönümünü qeyd etdik. Artıq haqlarımızı qalib ölkə kimi tələb edəcəyik".

Pərvin Qasımova kimi yüzlərlə mülki şəxs Ermənistanın məqsədli hücumlarının qurbanına çevrildi. O, düşmənin insanlıq əleyhinə törətdiyi bu cinayətlərin dünyaya yayılması üçün səsini ucaldacağını, beynəlxalq təşkilatların və dünya dövlətlərinin həqiqətləri bilməsinin vacibliyini bildirir.

2020-ci ilin oktyabrında Ermənistan ordusu "Skad" (Elbrus) və "Toçka-U" kimi uzaqmənzilli ballistik raketlərdən istifadə edərək Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncəni bir neçə dəfə atəşə tutdu. Hücumlar 4, 11 və 17 oktyabr tarixlərində baş verdi və əsasən gecə saatlarında - insanların yatdığı vaxt həyata keçirildi. Raketlər sırf yaşayış massivlərinə düşdü.

Nəticədə 26 mülki şəxs həlak oldu, 130-dan çox insan yaralandı, onlarla ev, avtomobil və infrastruktur obyekti tamamilə dağıldı. Bu hücumlar hərbi obyektlərə deyil, sırf dinc əhalinin yaşadığı ərazilərə yönəlmişdi.

Gəncə terroru Cenevrə Konvensiyalarının və beynəlxalq humanitar hüququn kobud şəkildə pozulmasıdır. Müharibə zamanı mülki şəxslərə, yaşayış məntəqələrinə və qeyri-hərbi obyektlərə hücum qəti qadağandır. Ermənistanın bu əməlləri müharibə cinayəti, insanlıq əleyhinə cinayət və terror aktı kimi qiymətləndirilməlidir.

Ermənistan rəhbərliyi bu hücumların məsuliyyətini daşıyır və beynəlxalq hüquq qarşısında cavab verməlidirlər. Azərbaycan dövləti bu istiqamətdə ardıcıl diplomatik və hüquqi addımlar atır.

Bu gün ölkəmizin əsas məqsədlərindən biri Gəncə, Bərdə, Tərtər və digər şəhərlərdə törədilmiş insanlıq əleyhinə cinayətlərin beynəlxalq səviyyədə tanıdılması və ədalətin bərpa edilməsidir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# "40-50% uşaq təhsilini davam etdirməkdə çətinlik çəkir" - Nazir

***"Azərbaycan təhsilinin ən problemlatik hissəsi ibtidai təhsildir. Yəni, ibtidai təhsili düzəltmədən, orta, tam orta, peşə və ya ali təhsili düzəltmək olmur. Çünki fundamentsiz ev tikmək olmur".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisdə "2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı elm və təhsil naziri Emin Əmrullayev deyib.

"Ona görə də təxminən 40-50% uşaq artıq ibtidai təhsildən sonra təhsilini davam etdirməkdə çətinlik çəkir. İbtidai təhsilin içinə girib düzəltmək lazımdır. Sertifikatlaşdırmaya yanaşmamız budur ki, müəllimliyin saathesabı, yarımştat, hərdənbir məktəbə gəlib dərs demək işindən daimi iş rejiminə keçməsidir. Bunu istəyən müəllimlər üçün tətbiq ediləcək, heç kəs heç kəsi buna məcbur etməyəcək. Tamamilə rəqabətli, yüksək əməkhaqqısı olacaq və daimi ştatda olan müəllimin dərs yükü 18 saat olacaq. Yerdə qalan saat hissələrini isə təhsilə aid digər işlərlə məşğul olacaq. Bunu hansı müəllim istəsə ki, yüksək əməkhaqqı ilə işləsin, onlar üçün tətbiq olunacaq. Yalnız bu müəllimlər sertifikasiyadan yüksək bal toplayanlar arasından seçiləcək. İstəməsələr saathesabı sistemlə davam edə bilərlər", - deyə nazir bildirib.

***Anar Kəlbiyev***

# Metronun bu stansiyasında təmir başladı

***"Bakı Metropoliteni" QSC "Nərimanov" stansiyasının 4-cü keçid çıxışında divar üzlüklərinin bərpası işlərinə başlayıb.***

"Unikal" xəbər verir ki, təmir müddətində sərnişinlərdən müvəqqəti olaraq 5 saylı çıxışdan istifadə etmələri xahiş olunur.

İşlərin noyabrın sonuna qədər tamamlanması nəzərdə tutulur.

# "Müəllim tamamilə daimi ştatda olacaq" - Nazir

***"Saathesabı, yarımştat kimi yox, müəllim tamamilə daimi ştatda olacaq."***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Aqrar siyasət, Ailə, qadın və uşaq məsələləri, Elm və təhsil komitələrinin birgə iclasında elm və təhsil naziri Emin Əmrullayev deyib.

"Müəllimlərin dərs yükü həftədə 18-24 saat təşkil edəcək. Qalan zamanda müəllim şagirdlərlə işləyəcək. Sertifikasiyada yüksək bal toplayan müəllimlər bu sistemlə yüksək maaşla işləyəcək. Bu, məcburi olmayacaq. İstəməyən müəllimlər saathesabı sistemlə davam edə biləcək. Müəllimlərin orta aylıq əməkhaqqının aşağı olmasının səbəbi saathesabı sisteminə görədir. Həftədə 4 saat dərs deyən müəllim nə qədər maaş ala bilər ki?", - deyə nazir bildirib.

# Restoranda partlayışda xəsarət alan şəxs öldü

***Sabunçu rayonu Bakıxanov qəsəbəsinin ərazisində yerləşən restoranın mətbəxində baş vermiş partlayışda xəsarət alan şəxs ölüb.***

"Unikal" xəbər verir ki, xəsarət alaraq xəstəxanaya yerləşdirilən Məlahət Cəfərova noyabrın 12-də orada vəfat edib.

Partlayış noyabrın 7-də baş verib.

43_27 IYUl-QARA.qxd 11/13/2025 9:18 PM Page 13






# İş yerinə dair arayışın alınması "mygov"a köçürülüb

***"mygov" rəqəmsal hökumət platforması üzərindən vətəndaşlara daha bir rəqəmsal xidmət təqdim olunub.***

Bu barədə "Unikal"a İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyindən (İRİA) bildirilib.

Məlumata görə, "iş yerinə dair arayışın alınması" xidməti artıq "mygov" platformasında da istifadəyə verilib.

Bu inteqrasiya İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin birgə əməkdaşlığı nəticəsində reallaşdırılıb.

Yeni xidmət vətəndaşlara iş yerlərinə dair arayışı birbaşa "mygov"dan əldə etməyə imkan yaradır. Hazırlanmış sənəd elektron formatda (PDF) yüklənir və təqdimata hazır olur. Arayışı viza, kredit, ipoteka və ya digər rəsmi məqsədlər üçün təqdim edilə bilər.

Xidmətdən istifadə qaydaları aşağıdakı kimidir:

Vətəndaş "mygov" platformasında "Xidmətlər" bölməsində "Məşğulluq" kateqoriyasına daxil olur. "İş yerinə dair arayışın alınması" xidmətini seçir.

Sistem avtomatik olaraq istifadəçinin aktiv əmək müqaviləsini yoxlayır və mövcud müqavilələrdən biri seçilir.

İstifadəçi arayışda görünəcək məlumatları özü müəyyən edir: əməkhaqqının göstərilib-göstərilməməsi, arayışın məqsədi (viza, kredit, ipoteka və s.) və əlaqə nömrəsi.

Əgər arayış müəyyən bir quruma təqdim olunacaqsa, istifadəçi həmin qurumun VÖEN-i və ya adını daxil edə bilər.

Təsdiqdən sonra sistem avtomatik olaraq arayışı yaradır, ona unikal sənəd nömrəsi və QR kod əlavə edir.

Vətəndaş yaradılmış sənədi elektron formatda yükləyə və istənilən quruma təqdim edə bilər. Bundan əlavə, kənar qurumlar və ya şəxslər arayışın doğruluğunu QR kod vasitəsilə, sənəd nömrəsini daxil etməklə, həmçinin "my.gov.az" portalında "Sənəd axtarışı" bölməsi vasitəsilə onlayn şəkildə yoxlaya bilirlər.

Bu xidmətin istifadəyə verilməsi dövlət xidmətlərinin rəqəmsallaşdırılması istiqamətində atılan növbəti mühüm addımdır. Yenilik sayəsində vətəndaşlar gündəlik əməliyyatlarını daha sürətli, şəffaf və rahat şəkildə həyata keçirə biləcəklər.

# BDU-nun kafedra müdiri vəfat etdi



***Bakı Dövlət Universitetinin (BDU) Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin Riyazi kibernetika kafedrasının müdiri, fizika-riyaziyyat elmləri doktoru, professor Kamil Mənsimov vəfat edib.***

"Unikal" xəbər verir ki, alim 75 yaşında dünyasını dəyişib.

# Əhaliyə göstərilən ödənişli xidmətlər

2025-ci ilin yanvar-sentyabr aylarında əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri müqayisəli qiymətlərlə 2024-cü ilin eyni dövrünə nisbətən 2,2 faiz artaraq 36436,7 min manat təşkil etmiş, hüquqi şəxslər tərəfindən əhaliyə 8997,8 min manat, hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 27438,9 min manat xidmətlər göstərilmiş və xidmətlərin ümumi həcmində onların xüsusi çəkisi müvafiq olaraq 24,7 və 75,3 faizi təşkil etmişdir.

*Ucar Rayon Statistika İdarəsinin rəisi*
*Şakir Qasımov*

# Kirayə vergisi 5 faizə endirilsin - Təklif

***Gələn ildən "Vergi Məcəlləsində" nəzərdə tutulan dəyişikliklərdən biri də fiziki şəxslərin kirayədən əldə etdikləri gəlirlərdən tutulan vergi dərəcəsinin azaldılmasıdır.***

"Unikal" xəbər verir ki, bu sözləri Milli Məclisin deputatı Vüqar Bayramov deyib.

O qeyd edib ki, təklif olunan dəyişikliklərə əsasən, 2026-cı ildən etibarən evlərini rəsmi müqavilə ilə kirayə verənlər 14 faiz deyil, 10 faiz vergi ödəyəcəklər:

"Kirayə vergisinin azaldılması müsbət haldır. Bununla belə, kirayə müqavilələrinin rəsmiləşdirilməsinin genişləndirilməsi üçün vergi dərəcələrinin daha çox endirilməsinə ehtiyac var. Aparılan müşahidələr göstərir ki, bu mənbədən büdcəyə ödəmələr yüksək deyil. Bunun əsas səbəblərindən biri də məhz vergi dərəcəsinin yüksək olması ilə bağlı idi. Bu baxımdan, kirayə vergisinin daha çox azaldılması bu sahənin daha çox ağarmasına və büdcə daxilolmalarının artmasına səbəb ola bilər. Müqayisə üçün qeyd edək ki, Moskva şəhərində fiziki şəxslər kirayədən əldə etdiyi gəlirdən cəmi 4 faiz vergi ödəyirlər. Hüququ şəxslər üçün isə vergi dərəcəsi 6 faizdir. Əgər 14 milyon sakini olan Moskva şəhərində vergi dərəcəsi 4 faizdirsə, deməli Bakıda 10 faizlik dərəcə kifayət qədər yüksək hesab edilə bilər. Qonşu Gürcüstanda kirayə vergisi 5 faizdir. Avstriyada aylıq kirayə gəlirinin 1500 avrodan az olduğu halda 5.76 faiz vergi tətbiq olunur.



Kirayə vergisi dərəcəsinin azaldılması təqdir olunsa da, daha aşağı dərəcələrinin tətbiqi məqsədəuyğundur. Bu baxımdan, Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında təqdim etdiyim təkliflərdən biri də kirayə vergisinin 14 faizdən 5 faizə endirilməsi ilə bağlı idi. Belə dəyişiklik fiskal gəlirlərimizə neqativ təsir göstərməz, əksinə sözügedən mənbənin daha da rəsmiləşməsi dövlət büdcəsinə daha çox vəsaitin daxil olmasına səbəb olardı", - deyə deputat əlavə edib.

# 2025-ci ilin 9 ayında Samuxun iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri

***2025-ci ilin yanvar-sentyabr ayları üzrə makroiqtisadi göstəricilər rayon iqtisadiyyatının inkişaf etdiyini əks etdirir. Hesabat dövründə məhsul istehsalı sahələrində istehsalın həcmi artmış, xidmət sahələrinin fəaliyyəti genişlənmiş, əhalinin həyat səviyyəsini əks etdirən pul gəlirləri və əməkhaqqı yüksəlmişdir.***

İqtisadiyyatın əsas sahələrində 176291,5 min manatlıq məhsul və xidmətlər istehsal edilmişdir və əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə eyni olmuşdur. Ümumi məhsul buraxılışının çox hissəsini (69,5 faizini) kənd təsərrüfatı məhsulu təşkil etmiş və əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,3 faiz çox olmuşdur.

Kənd təsərrüfatı məhsullarının istehsalı 122509,4 min manat olmuşdur ki, bunun da 72144,3 min manatını bitkiçilik, 50365,1 min manatını isə heyvandarlıq məhsulları təşkil etmişdir.

2025-ci ilin məhsulu üçün 11869,5 hektar payızlıq bitkilərin səpini aparılmış və əvvəlki ilə nisbətən 177,7 hektar və ya 1,5 faiz çox olmuşdur. Eyni ilə 5228,6 hektar sahədə yazlıq bitkilərin səpini aparılmışdır.

Yazlıq səpinin 598,5 hektarı və ya 11,4 faizi yem bitkiləri, 27,0 hektarı və ya 0,5 faizi yazlıq buğda, 113,8 hektarı və ya 2,2 faizi yazlıq arpa, 613,5 hektarı və ya 11,7 faizi tərəvəz, 2289,5 hektarı və ya 43,8 faizi günəbaxan, 128,0 hektarı və ya 2,4 faizi kartof, 369,5 hektarı və ya 7,1 faizi şəkər çuğunduru, 958,7 hektarı və ya 18,3 faizi qarğıdalı, 24,0 hektarı və ya 0,5 faizi tərəvəz (toxum üçün), 92,5 hektarı və ya 1,8 faizi bostan bitkiləri, 13,6 hektarı və ya 0,3 faizi paxlalı bitkilər olmuşdur.




Təsərrüfatlarda 46672,0 ton taxıl, o cümlədən 25828,9 ton buğda, 20843,1 ton arpa, 1495,4 ton kartof, 13070,0 ton tərəvəz, 2138,0 ton qarğıdalı, 3981,9 ton günəbaxan, 1712,9 ton bostan, 19647,0 ton şəkər çuğunduru, 40,6 ton paxlalı bitkilər, 23,0 ton tərəvəz (toxum üçün), 9288,1 ton meyvə, 6694,5 ton üzüm istehsal olunmuşdur.

1 oktyabr 2025-ci il tarixinə 23269 baş iribuynuzlu mal-qara, 113131 baş qoyun və keçilər mövcud olmuşdur.

Əvvəlki ilin eyni dövrü ilə müqayisədə iribuynuzlu mal-qaranın sayı 578 baş və ya 2,4 faiz, qoyun və keçilərin sayı isə 7437 baş və ya 6,2 faiz azalmışdır.

Hesabat dövründə diri çəkidə ət istehsalı 3973,0 ton, süd istehsalı 22023,7 ton, yumurta istehsalı 6915 min ədəd və yun istehsalı 234,2 ton olmuşdur.

2025-ci ilin yanvar-sentyabr aylarında sənayedə məhsul istehsalının və xidmətlərin həcmi 17185,9 min manat olmuşdur.

Hesabat dövrü ərzində tikinti təşkilatları tərəfindən görülən inşaat işlərinin həcmi 69,4 faiz artaraq 4450,5 min manat olmuşdur

Hesabat dövründə əsas kapitala yönəldilmiş investisiyaların həcmi 15072,9 min manat olmuşdur.

Nəqliyyat və anbar təsərrüfatı sahəsində mal və xidmətlərin həcmi əvvəlki ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 5,8 faiz artaraq, 2475,5 min manata çatmışdır.

Rabitə sahəsi üzrə mal və xidmətlərin ümumi həcmi 83,3 min manat olmuşdur. Hesabat dövründə telefon çəkilişi olmamış və sabit şəbəkə telefonlarının sayı isə 1375 ədəd olmuşdur.

2025-ci ilin yanvar-sentyabr aylarında ticarət; nəqliyyat vasitələrinin təmiri sahəsi üzrə məhsul buraxılışının həcmi 29586,9 min manat olmuşdur.

Pərakəndə ticarət dövriyyəsi müqayisəli qiymətlərlə 3,8 faiz azalaraq 92459,1 min manat olmuşdur.

Topdansatış ticarət dövriyyəsi 8970,6 min manat və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən 4733,2 min manat və ya 2,1 dəfə çox olmuşdur.

Əhaliyə 34002,6 min manatlıq ödənişli xidmət göstərilmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 9,1 faiz çox olmuşdur. Əhaliyə göstərilən ödənişli xidmətlərin 3332,2 min manatını və ya 9,8 faizini məişət xidmətləri təşkil etmişdir.

Hesabat dövründə əhaliyə 3870,2 min manatlıq iaşə xidmətləri göstərilmişdir. Bu əvvəlki ilə nisbətən 623,4 min manat və ya müqayisəli qiymətlərlə 13,2 faiz çox olmuşdur.

2025-ci ilin avqust ayının sonuna siyahı tərkibində olan işçilərin sayı 5543 nəfər və hər bir işçiyə düşən orta aylıq nominal əməkhaqqının məbləği 692,5 manat olmuşdur ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 10,3 faiz çox olmuşdur.

*Samux Rayon*
*Statistika İdarəsi*

43_27 IYUI-QARA.qxd 11/13/2025 9:18 PM Page 14



# Ali Məhkəmə vətəndaşa vurulan ekoloji zərərlə bağlı şikayəti təmin etdi

***Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası sağlam ətraf mühitdə yaşamaq hüququ və bu hüququn pozulması nəticəsində vurulan zərərin ödənilməsi ilə bağlı məhkəmə təcrübəsini təmin edən qərar qəbul edib.***

"Unikal"ın məlumatına görə, vətəndaş neft emalı zavoduna qarşı iddia qaldıraraq bildirib ki, sağlamlığına dəyən zərər həmin zavodun fəaliyyəti ilə bağlıdır. O, zavodun mülki məsuliyyətə cəlb edilməsini və dəymiş zərərin ödənilməsini tələb edib.

İşə baxılarkən iddiaçıya məxsus fərdi yaşayış evi yaxınlığında aparılan monitorinqlər nəticəsində havada və suda zərərli maddələrin miqdarının normadan artıq olması məlum olub. Belə ki, aparılan yoxlamalarda atmosferə atılan çirkləndirici maddələrin, xüsusən də etil-benzolun qatılığının sanitar norma həddini bir neçə dəfə keçdiyi müəyyən edilib. Hava və su nümunələrinin analizləri zamanı digər bəzi göstəricilərdə də normadan kənar nəticələr aşkarlanıb.

Apellyasiya instansiyası məhkəməsi qeyd edilənləri nəzərə alaraq mənəvi zərər üçün əhəmiyyətli məbləğdə pul vəsaitinin cavabdehdən tu-



tularaq iddiaçıya ödənilməsi barədə qərar verib. Cavabdeh zavod mənəvi təzminatla razılaşmayaraq Ali Məhkəməyə müraciət edib.

Ali Məhkəmənin Mülki kollegiyası qeyd edib ki, sağlam ətraf mühitdə yaşamaq hüququ şəxsiyyət hüququnun tərkib hissəsi olmaqla hər kəsin ekoloji cəhətdən təmiz, əlverişli və təhlükəsiz ətraf mühitdə yaşamasına təminat verir. Bu hüquq Konstitusiyanın 39-cu maddəsi, Azərbaycan Respublikasının tərəfdaş olduğu digər beynəlxalq hüquqi sənədlər, "Ətraf mühitin mühafizəsi haqqında", "Ekoloji təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının qanunları və digər aidiyyəti normativ hüquqi aktlarla qorunur.

Ekoloji cəhətdən təmiz, əlverişli və təhlükəsiz ətraf mühit dedikdə, iqlim və ekosistem (ağacların qırılması, torpağın şoranlaşması və eroziyası, su hövzələrinin qurudulması, bioloji müxtəlifliyin azalması və s.), fiziki (səs-küy, toz, radiasiya, istilik, vibrasiya və s.), kimyəvi (qaz, neft məhsulları, pestisidlər, ağır metallar və s.), bioloji (bakteriyalar, virus, göbələk və s.) və mexaniki (plastik tullantılar, tikinti qalıqları və s.) cəhətdən çirklənməmiş mühit (hava, torpaq, su, yerin təki, flora və fauna) başa düşülür. Ekoloji hüquqpozmaların törədilməsi şəxsin sağlam ətraf mühitdə yaşamaq hüququnu pozduğu halda isə bu, ona mənəvi zərərin əvəzinin ödənilməsini istisna etmir.

Beləliklə, ətrafdakılar üçün yüksək təhlükə mənbəyi hesab edilən zavodlar tərəfindən ekoloji hüquqpozmaların törədilməsi şəxsin sağlam ətraf mühitdə yaşamaq hüququ, habelə onun sağlamlığının qorunması və digər şəxsiyyət hüquqlarının pozulmasına və ona mənəvi zərərin vurulmasına səbəb ola bilər.

Bu baxımdan istehsal müəssisələri və digər təşkilatlar öz fəaliyyətlərini həyata keçirən zaman bu hüquqların pozulmasından çəkinməlidirlər.

# Parlaq qələbəmizin qəhrəmanlıq simvolu

***İkinci Qarabağ müharibəsində qorxmaz, cəsur, qeyrətli oğullarımız 44 gün içində düşməni məhv edib Azərbaycanın hərb tarixinə qəhrəmanlıq salnaməsini yazdılar. Öz qanı bahasına bu tarixi zəfəri qazanan minlərlə Vətən övladından biri də 1989-cu il fevralın 6-da Biləsuvar rayonu, Aşağı Cürəli kəndində dünyaya göz açan Cavid Hilal oğlu Mahmudovdur. O, göstərdiyi misilsiz hünərlə ölümsüzlüyə qovuşdu. 31 illik ömür yolu torpağına, yurduna məhəbbət mücəssəməsinə dönən Cavid ürəklərdə yaşamaqla, qərinələr keçəcək gələcək nəsillər də onu həmişə mərd, igid oğul, layiqli vətəndaş kimi böyük ehtiramla xatırlayacaq.***

Qanında, ruhunda Vətən sevgisi dövr edən Cavidi yağının qanlı əməlləri, Qarabağın işğalı məktəb illərindən düşündürüb. Odur ki, xain və hiyləgər dığalara öz yerini göstərmək üçün orta məktəbi bitirib, hərbiçi olmağı ən düzgün yol bilib. 2006-2010-cu illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb. Cavid Mahmudov 2010-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin Daşkəsən rayonunda yerləşən "N" saylı hərbi hissəsində, 2012-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin Tovuz rayonunda yerləşən "N" saylı hərbi hissəsində, 2018-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin Göygöl rayonunda yerləşən "N" saylı



hərbi hissəsində xidmət edib. 2020-ci ildən isə o, Azərbaycan Silahlı Qüvvələrinin Abşeron rayonunda yerləşən "N" saylı hərbi hissəsinə gəlib. Həmişə də cəbhə bölgəsində olmaqla öz doğma Vətənini göz-bəbəyi kimi qorumaq, yağı işğalında olan hər qarış torpaq uğrunda canından keçməyə hazır durmaq arzusu ilə nəfəs alıb. Son dərəcə mərd, cəsur, ağıllı komandirin Vətənə, torpağa sevgisi tabeliyində olan əsgərləri də sevindirib, onlarda düşmənə qarşı nifrət hissi yaradıb. Eləcə öz əsgərlərinə təlqin edib ki, Vətəni qorumaq, bu yolda belə şəhid olmaq hər birimizin şərəfli borcudur. Həyata real, ağıllı nəzərlərlə baxan Cavid xidmət etdiyi 10 il müddətdə Vətənini hər şeydən üstün, qiymətli bilib. Bir dəfə olsun hər hansı nöqsana yol verməyib. Özündən yuxarı vəzifəli komandirlərinin tapşırıqlarını vaxtında yüksək keyfiyyətlə yerinə yetirib. Təlimlərdə bütün sınaqlardan uğurla keçib. O, kapitan rütbəsinə qədər yüksəlib. Azərbaycan Silahlı Qüvvələrinin 90, 95 və 100 illiyi yubiley medallarına layiq görülüb.

Qəlbi Vətən eşqi ilə döyünən Cavidi Qarabağımızın düşmən işğalında qalması həmişə ciddi narahat edib. 2020-ci il sentyabrın 27-də yağı düşməndən qisas alaraq Vətən torpaqlarının azad etmək məqamı gələndə əlinə silah alıb, odlu səngərə birincilər sırasında girib. Dığalara ilk endirdiyi sarsıdıcı zərbəsi zamanı onların çoxlu sayda canlı qüvvəsi məhv edilib. Daha sonra neçə-neçə qeyri-bərabər ağır döyüşlərdə fədakarlığı, mərdliyi nümunə olub. Hər dəfə Vətən torpaqlarının bağrına zəfər bayrağı sancılanda düşmənin üstünə ürəklə, qələbəyə inamla gedib. Axırıncı savaş yeri Füzuli olub. Burada da yağıya qan qusdurub. Ölümcül yaralansa da, amma təslim olmayıb, son damla qanına qədər mübarizə aparıb. Döyüşə-döyüşə oktyabrın 5-də müqəddəs şəhidlik zirvəsinə ucalıb.

Parlaq qələbəmizin igidlik simvoluna çevrilən, məkanı milyonların ürəyi olan Cavid Mahmudova ölümündən sonra "Vətən Müharibəsini Qəhrəmanı" adı verilib. Həmçinin zəfər şəhidi "Vətən uğrunda", Cəbrayılın, Füzulinin azadlığı uğrunda medalları ilə təltif edilib.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Həcc vizası üçün sağlamlıq sertifikatı tələb olunacaq

***Viza verilərkən zəvvarlardan sağlamlıq sertifikatı istənəcək. Sertifikat Həcc bürosu və tibbi missiyanın məsul şəxsi tərəfindən təsdiq olunmalı və "Masar" platformasında elektron şəkildə qeydə alınmalıdır.***

"Unikal" "əl-Xəlic" qəzetinə istinadla xəbər verir ki, bu qayda Səudiyyə Ərəbistanı Həcc və Ümrə Nazirliyi tərəfindən növbəti mövsümdə tətbiq olunacaq.

Qeyd olunur ki, qurbanlıq heyvanın satın alınması və kəsilməsi üçün ödəmə "Adahi" platforması və Həcc büroları vasitəsilə həyata keçiriləcək.

Səudiyyə Ərəbistanı Həcc və Ümrə naziri Taufiq əl-Rəbia bildirib ki, "Nusuk" kartı Məkkə məscidinə və digər müqəddəs yerlərə giriş üçün vacib olacaq, eləcə də bütün maliyyə və inzibati əməliyyatlar "Nusuk" və "Masar" platformaları vasitəsilə aparılacaq.

# 2025-ci ilin 9 ayında Ağdaşın iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri

***2025-ci ilin yanvar-sentyabr aylarında rayonda iqtisadiyyatın əsas sahələri üzrə 352 milyon 550,9 min manatlıq məhsul və xidmətlər istehsal olunmuşdur. Bu göstərici əvvəlki ilin eyni dövrünə nisbətən müqayisəli qiymətlərlə 0,4 faiz çoxdur.***

Bu dövrdə ümumi məhsul buraxılışı müqayisəli qiymətlərlə əvvəlki ilin müvafiq dövrünə nisbətən tikinti sahəsində 76,4 faiz, ticarət; nəqliyyat vasitələrinin təmiri sahəsində 1,9 faiz artmış, nəqliyyat və anbar təsərrüfatı sahəsində 0,1 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 0,8 faiz, sənaye sahəsində 1,7 faiz, informasiya və rabitə sahəsində isə 77,5 faiz azalmışdır.

Ümumi məhsul buraxılışının 50,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 25,6 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 21,1 faizi sənaye, 1,5 faizi tikinti, 1,5 faizi isə nəqliyyat və anbar təsərrüfatı sahəsində yaranmışdır.

Məhsul və xidmətlərin 72,8 faizi istehsal sahələrinin, 27,2 faizi isə xidmət sahələrinin payına düşmüşdür.

***Ağdaş Rayon Statistika İdarəsi***

# Ucarda tikinti və sənaye statistikası

***Sənaye müəssisələrində və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2025-ci ilin yanvar-sentyabr aylarında 11922,7 min manatlıq məhsul istehsal edilmişdir.***

2025-ci ilin yanvar-sentyabr aylarında sənaye sahəsində istehsalın və xidmətlərin həcminin 3220,8 min manatı və ya 27,0 faizi dövlət sektorunun, 8701,9 min manatı və ya 73,0 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür. İlkin məlumatlara əsasən 2025-ci ilin yanvar-sentyabr aylarında müəssisə və təşkilatlar tərəfindən rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün əsas kapitala bütün maliyyə mənbələrindən 4456,1 min manat və ya 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 54,0 faiz çox investisiya yönəldilmişdir.

Əsas kapitala yönəldilmiş investisiyanın 2176,3 min manatı və ya 48,8 faizi dövlət, 2279,8 min manatı və ya 51,2 faizi isə qeyri-dövlət sektorunun payına düşmüşdür.

***Ucar Rayon Statistika İdarəsinin aparıcı məsləhətçisi Cəlil Vəlimənmədov***


## ELAN

05.01.2010-cu il tarixdə 060010-Q3-0010 nömrə ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Ağsu rayon Qeydiyyat şöbəsi tərəfindən dövlət qeydiyyatına alınmış "Padar" sudan istifadə edənlər birliyi ləğv olunaraq hüquqi şəxsin qoşulma şəklində yenidən təşkili (birləşmə) formasında 05.01.2010-cu il tarixdə 060010-Q3-0007 nömrə ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Ağsu rayon Qeydiyyat şöbəsi tərəfindən dövlət qeydiyyatına alınmış "Ərəbmehdibəy" sudan istifadə edənlər birliyinin bazasına qoşulmuş (birləşdirilmiş) və onun hüquqi varisidir.

21.04.2009-cu il tarixdə 060009-Q2-0002 nömrə ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Ağsu rayon Qeydiyyat şöbəsi tərəfindən dövlət qeydiyyatına alınmış "Ərəbmehdibəy" sudan istifadə edənlər birliyi ləğv olunaraq hüquqi şəxsin qoşulma şəklində yenidən təşkili (birləşmə) formasında 21.04.2009-cu il tarixdə 060009-Q2-0003 nömrə ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Ağsu rayon Qeydiyyat şöbəsi tərəfindən dövlət qeydiyyatına alınmış "Ağarx" sudan istifadəedənlər birliyinin bazasına qoşulmuş (birləşdirilmiş) və onun hüquqi varisidir.

43_27 IYUI-QARA.qxd 11/13/2025 9:18 PM Page 15



# Tramp Putinlə bu halda görüşəcək



***ABŞ prezidenti Donald Tramp rusiyalı həmkarı Vladimir Putinlə Ukrayna münaqişəsinin həllinə kömək edəcəyi təqdirdə görüşməyə razılıq verəcək.***

”Unikal” xəbər verir ki, bu barədə ABŞ dövlət katibi Marko Rubio ”Bloomberg”ə açıqlayıb.

”Hər iki tərəf razılaşdı ki, prezidentlərimiz arasında növbəti görüş konkret nəticələr verməlidir. Biz müsbət bir şey əldə etmək üçün real imkanın olduğunu bilməliyik”, - Rubio bildirib.

ABŞ dövlət katibi qeyd edib ki, Vaşinqton görüşlər xatirinə görüşlər keçirmək niyyətində deyil.

# Ermənistan MTX yeni həbslərə başlayıb

***Cinayət Axtarış İdarəsində aparılan araşdırmalar çərçivəsində Narek Samsonyan və Vazgen Saqatelyanın evlərində axtarışlar aparılır.***

”Unikal” erməni KİV-ə istinadən xəbər verir ki, bu barədə MTX-nin Cinayət Axtarış İdarəsi məlumat yayıb.

Məlum olub ki, Narek Samsonyan tutularaq istintaq idarəsinə aparılıb. Vazgen Saqatelyan da evində aparılan axtarışlardan sonra MTX əməkdaşları tərəfindən aparılıb.

Qeyd edək ki, Narek Samsonyan və Vazgen Saqatelyan bir neçə gün əvvəl üçüncü prezident Serj Sarkisyanın qonaq olduğu “İmnemnim” podkastının aparıcısı olublar.

# "Fikirlərimiz üst-üstə düşür" - Peskov

***”Moskvanın baxışı Serbiya prezidenti Aleksandr Vuçiçin fikri ilə üst-üstə düşür: Avropa ölkələrində həqiqətən də güclü militarist əhval-ruhiyyə var”.***



”Unikal” xəbər verir ki, bu barədə Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov deyib.

Rusiya prezidentinin mətbuat katibi bir sıra ölkələrdə hərbi büdcələrin artdığını qeyd edib. Lakin onun fikrincə, bu yanaşma Aİ-yə daha böyük ziyan vuracaq: ”Bu, iqtisadi yüklənməyə gətirib çıxarır və ortamüddətli perspektivdə daha ciddi nəticələrə səbəb olacaq”.

Peskov vurğulayıb ki, Moskva həmişə belə bir təhlükənin olduğunu anlayıb, ona görə də onun maraqlarını və təhlükəsizliyini təmin etmək üçün əvvəlcədən bütün tədbirlər görülüb.

# ABŞ-də şatdaun ləğv edildi

***ABŞ tariixinin ən uzun şatdaunu (hökumətin bağlanması) başa çatıb.***

”Unikal” xəbər verir ki, bir neçə gün əvvəl Senatın və bu gün Nümayəndələr Palatasının hökumətin maliyyələşməsi ilə bağlı qanun layihəsini səs çoxluğu ilə təsdiqləməsindən sonra layihə Prezident Donald Tramp tərəfindən imzalanıb.

Layihə hökumətin yanvarın 30-na kimi maliyyələşməsini nəzərdə tutur.

Oktyabrın 1-dən bu yana 43 gün davam edən bağlanma ABŞ tarixinə ən uzun şatdaun kimi düşüb.

# Ukrayna Avropa İttifaqından 5,9 milyard avro alıb

***Ukrayna Avropa İttifaqından 5,9 milyard avro alıb.***

”Unikal” xarici KİV-ə istinadən xəbər verir ki, bu barədə baş nazir Yuliya Svırıdenko məlumat yayıb.

Onun sözlərinə görə, ERA Kreditləri mexanizmi çərçivəsində 4,1 milyard avro Rusiyanın dondurulmuş aktivlərindən əldə edilən gəlirlər hesabına maliyyələşdirilən 18 milyard avroluq proqramın yekun tranşıdır.

”Bu, Rusiyanın öz cinayətlərinin əvəzini ödəməyə başladığının bir nümunəsidir. Eyni zamanda, bu, Avropanın həmrəyliyinin və bizim sağ qalmaq qabiliyyətimizi dəstəkləmək əzminin siqnalıdır”, - Svırıdenko vurğulayıb.

**Səhifəni Ağarza Elçinoğlu hazırladı**

# "Paşinyan Bakıdakı hərbi parada dəvət olunmadığı üçün əsəbi ola bilər" - Mikoyan

***”Paşinyanın əsəbi vəziyyəti onun Bakıda keçirilən hərbi parada dəvət olunmaması ilə bağlı ola bilər”.***



”Unikal” xəbər verir ki, bunu Ermənistanın ikinci prezidenti Robert Köçəryanın ofisinin rəhbəri Baqrat Mikoyan açıqlayıb.

O, Paşinyanın prezidentlərlə debat təklifinə bu cür cavab verib: ”Bəzən psixoloqa ehtiyac olduğuna sevinirəm, amma sonra görürəm ki, psixoloq yox, psixiatr lazımdır. Ümumiyyətlə, bəşəriyyət yaxşı şeylər icad edib. Dərmanlar qarışdırılmaması üçün müxtəlif rəngli qutulara qoyulur. Bu, qəbul edilmiş bir təcrübədir, bu halda tətbiq oluna bilər”.

O, Paşinyanın parlamentdəki açıqlamalarından danışaraq qeyd edib ki, baş nazirin ümumi əsəbi vəziyyəti onun Bakıda keçiriləcək hərbi parada dəvət olunmaması ilə bağlı ola bilər: ”Həqiqətən də, İlham Əliyev çox inadkar bir insandır. O, silah əvəzinə Nikol Paşinyanı çağıra bilərdi və bu, onların ən güclü silahı kimi bir addım olardı”.

# Türkiyə MN qəza ilə bağlı bütün suallara cavab verdi

***Türkiyə Milli Müdafiə Nazirliyi Azərbaycan-Gürcüstan sərhədində qəzaya uğrayan C-130 hərbi yük təyyarəsi ilə bağlı verilən bütün sualları cavablandırıb.***



”Unikal” xəbər verir ki, Milli Müdafiə Nazirliyinin açıqlamasında bir sıra suallara aydınlıq gətirilib:

- 11 noyabrda Hərbi Hava Qüvvələri Komandanlığının 12-ci Hava Nəqliyyatı Əsas Baza Komandanlığına məxsus, 68-1609 nömrəli C-130E nəqliyyat təyyarəmiz saat 09:02-də Kayseridən Gəncəyə şəxsi heyət və təchizat daşımaq üçün havaya qalxıb. Saat 11:06-da Gəncəyə təhlükəsiz şəkildə eniş edib.

- Qələbə Günü bayramı çərçivəsində Azərbaycanda uçuş edən F-16 təyyarələrimizin 10 nəfərlik texniki xidmət heyətini və müxtəlif təyyarə texniki ləvazimatlarını daşımaq üçün təyyarə saat 13:15-də 5-ci Əsas Reaktiv Baza Komandanlığına (Merzifon) qayıtmaq üçün ümumilikdə 20 nəfərlik heyətlə yenidən yola düşdü.

- Havaya qalxdıqdan sonra saat 13:50-də Tbilisi Hava Hərəkətinin İdarə Edilməsi Mərkəzi ilə son radio əlaqəsi quruldu. Bu müddətdən sonra təyyarə ilə radio və radar əlaqəsi kəsilib. Tbilisi Hava Hərəkətinin İdarə Edilməsi Mərkəzinin sonrakı əlaqələri cavabsız qalıb.

- Saat 14:34-də təyyarəmizin hələlik məlum olmayan səbəbdən Tbilisinin cənubunda, Azərbaycan-Gürcüstan sərhədi yaxınlığında qəzaya uğradığı bildirildi.

- Hadisədən xəbər tutduqdan sonra dərhal Azərbaycan və Gürcüstan hakimiyyəti ilə əlaqələndirilərək axtarış-xilasetmə işlərinə başlanıldı və eyni zamanda bölgəyə pilotsuz təyyarə göndərildi. Gürcüstan axtarış-xilasetmə qrupları saat 15:02-də təyyarənin qalıqlarını aşkar etdi və qəza araşdırma qrupumuzun araşdırma aparması üçün saat 17:00-da ərazi mühafizə edildi.

- Nazirimiz axtarış-xilasetmə işləri ilə bağlı Gürcüstan Müdafiə Naziri, Azərbaycan Müdafiə Naziri və Azərbaycan Baş Qərargah rəisi ilə görüşlər keçirib.

- Araşdırma nəticəsində təyyarədə olan 20 qəhrəman silahdaşımızın şəhid olduğu məlum olub. Həlak olan silahdaşlarımızın qalıqları tapılıb və bu gün ölkəmizə qaytarılması planlaşdırılır.

- Şəhidlərin qalıqları ölkəmizə qayıtdıqdan sonra dəfn yerlərinə göndəriləcək.

- Hadisənin səbəbi qəza araşdırma qrupu tərəfindən ətraflı araşdırma aparıldıqdan sonra aydınlaşdırılacaq. Ən qısa müddətdə nəticə əldə etmək üçün səylərimiz davam edir.

- Dağıntıların axtarış-xilasetmə işləri zamanı sürətli reaksiyalarına və bütün resursların səfərbər olunmasına görə Gürcüstan və Azərbaycan hakimiyyət orqanlarına təşəkkür edirik.

- Təyyarəmizdə şəxsi heyət və təyyarənin texniki xidmət avadanlıqları var idi. Göyərtədə heç bir sursat yox idi.

- Hazırda bu məsələ (qəza səbəbi -red.) ilə bağlı şərh vermək üçün hələ tezdir. Hadisənin səbəbi davam edən qəza araşdırmasından sonra aydınlaşdırılacaq.

- Sözügedən təyyarə Səudiyyə Ərəbistanından 21 yanvar 2012-ci ildə alınıb və texniki xidmətdən sonra 2014-cü ildə inventara əlavə edilib. 2022-ci ildən etibarən modernləşdirilib və yenidən istifadəyə verilib.

- Həmin tarixdən bəri müntəzəm texniki baxışla xidmətdədir. Lakin iddiaların əksinə olaraq, bu, istifadəçi ölkə tərəfindən istismardan çıxarılan təyyarə deyil. C-130 təyyarələri Səudiyyə Ərəbistanı tərəfindən istifadə olunmağa davam edir.

- Köhnə təyyarə yoxdur, baxımsız təyyarələr var. Bu təyyarələrin texniki xidməti ölkəmiz tərəfindən müntəzəm olaraq həyata keçirilir. C-130 təyyarələri hazırda 70-dən çox ölkədə aktiv istifadədədir.

- Təyyarə Erciyes Avionics modernləşdirilməsindən keçib və gövdə, mühərrik və pervanelin planlaşdırılmış texniki xidməti vaxtında başa çatdırılıb.

- Sonuncu texniki xidmət 11 sentyabr - 12 oktyabr 2025-ci il tarixləri arasında aparılıb.

43_27 IYUl-QARA.qxd 11/13/2025 9:19 PM Page 16



# AFFA-dan "Turan Tovuz"un futbolçusuna cəza, klublara cərimə



***AFFA İntizam Komitəsinin iclası keçirilib.***

"Unikal" PFL-in saytına istinadən xəbər verir ki, iclasda Misli Premyer Liqasının 11-ci turundakı qayda pozuntuları ilə bağlı qərarlar qəbul olunub.

"Qəbələ" - "Sumqayıt" oyununda "Sumqayıt"ın 4 futbolçusu sarı vərəqə aldığı üçün klub 700 manat cərimə edilib.

"Zirə" - "Turan Tovuz" matçında "Zirə"dən 5 nəfər sarı vərəqə aldığı üçün paytaxt təmsilçisi 700 manat cərimələnib.

Eyni görüşün 61-ci dəqiqəsində "Turan Tovuz"un 19 nömrəli futbolçusu Roberto Olabe ikinci sarıdan qırmızı vərəqə aldığı üçün 1 oyun oyunluq cəzalandırılıb, klubu 500 manat cərimə edilib.

"Kəpəz" - "Sabah" oyununda ev sahiblərinin 5 futbolçusu sarı vərəqə aldığı üçün klub 700 manat cərimələnib.

Bu matçda "Sabah"ın 4 futbolçusu sarı vərəqə aldığı üçün Bakı təmsilçisi 700 manat cərimə edilib.

"Qarabağ" - "Neftçi" oyununun 90-cı dəqiqəsində "Qarabağ" azarkeşləri tərəfindən rəqib komandanın ünvanına kütləvi şəkildə təhqiramiz ifadələr səsləndirildiyinə və bu hal cari mövsümdə 2-ci dəfə təkrarlandığına görə "Qarabağ" 6000 manat cərimələnib.

Eyni oyununun 84-cü dəqiqəsində "Neftçi" azarkeşləri tərəfindən meydançaya kənar əşya atıldığına və bu hal cari mövsümdə 3-cü dəfə təkrarlandığına görə klub 3500 manat cərimələnib.

Həmin görüşün 84-cü dəqiqəsində "Neftçi" azarkeşləri tərəfindən rəqib komandanın ünvanına kütləvi şəkildə təhqiramiz ifadələr səsləndirildiyinə və bu hal cari mövsümdə 3-cü dəfə təkrarlandığına görə klub 7000 manat cərimə edilib.

Sözügedən qarşılaşmada "Neftçi" azarkeşləri tərəfindən oturacaqlar sındırıldığına, stadiona zərər vurulduğuna görə "Neftçi" 3000 manat cərimələnib.

Bu oyun bitdikdən sonra "Neftçi"nin baş məşqçisi Samir Abasov hakimi təhqir etdiyinə görə 4 oyunluq cəzalandırılıb, "Neftçi" 10000 manat cərimələnib.

# AMADA-nın son 9 ay ərzində gördüyü işlər barədə hesabat təqdim edilib

***Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş "İdmanda hüquq və ədalət: Yeni antidopinq çərçivəsi" adı altında keçirilən beynəlxalq konfransda qurumun son 9 ay ərzində gördüyü işlər barədə hesabat təqdim edilib.***

AMADA-nın icraçı direktoru Təhminə Tağı-zadə təqdimatında Milli Test Bölüşdürmə Planının təsdiqləndiyini və hesabat dövründə ümumilikdə 649 test aparıldığını qeyd edib. Bildirib ki, bunlardan 282-si yarış zamanı, 367-si isə yarışdan kənar dövrdə həyata keçirilib.

Diqqətə çatdırılıb ki, 68 idmançı Qeydiyyata alınmış Test Qrupunun (QTQ) nəzarətində saxlanılıb. Həmçinin 30 antidopinq nəzarət məntəqəsi auditdən keçirilib. Tədbir çərçivəsində yeni DNT/QTİ seçimi və təlimləri də təşkil olunub.

Təqdimatın növbəti hissəsində nəticələrin emalı və təhqiqat prosesi barədə məlumat verilib. Qeyd olunub ki, AMADA-nın 2017-2025-ci illər ərzindəki fəaliyyəti nəticəsində ən çox sanksiya tətbiq edilən idman növləri müəyyənləşdirilib. Əldə olunan göstəricilərə əsasən, güləş (22) birinci yerdə qərarlaşıb. Onu boks (20) və ağır atletika (12) izləyib. Siyahıda daha sonra taekvondo (11), cüdo (9), pauerliftinq (7), velosiped idmanı (6), atletika (5), həndbol (5) və kikboksinq (5) kimi idman növləri yer alıb.

Hesabatda, həmçinin beynəlxalq əlaqələr və elmi-tədris fəaliyyətləri barədə də ətraflı məlumat verilib.

Bildirilib ki, AMADA 12 əsas



beynəlxalq tərəfdaş - WADA, UNESCO, NADA Germany, POLADA, ITA, iNADO və digər qurumlarla sıx əməkdaşlıq əlaqələri qurub. Qurum CAHAMA, T-DO, iNADO və WADA tədbirlərində mütəmadi iştirak edir. Eyni zamanda, POLADA və NADA Germany ilə əməkdaşlıq memorandumu imzalanıb. Vurğulanıb ki, 2026-cı ildə WADA Avropa Simpoziumu Bakıda keçiriləcək. Bu tədbirlərin nəticəsində Azərbaycanın antidopinq sahəsində qlobal mövqeyi daha da möhkəmləndirilib.

AMADA-nın elmi və maarifləndirici fəaliyyəti də diqqət mərkəzində olub. Hesabatda bildirilib ki, 50-dən çox maarifləndirici tədbir təşkil edilib və bu tədbirlərə 2 mindən artıq iştirakçı qatılıb. Qurum UNESCO qrantı (35 000 ABŞ dolları) çərçivəsində süni intellekt layihəsi həyata keçirib. Həmçinin iNADO, UKAD, ITA və IOC ilə birgə beynəlxalq təqdimatlar təşkil olunub.

Qeyd olunub ki, gənclər və yeniyetmələr antidopinq maarifləndirilməsində prioritet hədəf qrup kimi müəyyənləşdirilib.

# Millimizin UEFA İnkişaf Turniri üçün heyəti açıqlandı

***Azərbaycan U-15 millisi noyabrın 13-dən 16-dək Bakıda təlim-məşq toplanışında olacaq.***

"Unikal" AFFA-nın saytına istinadən xəbər verir ki, noyabrın 17-dən 24-dək Moldovanın paytaxtı Kişineuda UEFA İnkişaf Turnirində çıxış edəcək. Komandamız turnir çərçivəsində 3 oyun keçirəcək. Millimizin Bakı toplanışı üçün ilkin heyəti açıqlanıb. Yekun heyət noyabrın 17-də müəyyənləşəcək.

Yığmamızın heyəti aşağıdakı kimidir:

Oqtay Mehrəliyev, Raul Əliyev, Ruhid Məmmədli, Məhəmmməd Ağamaliyev, Ramil Əmirquliyev, Səbran Muradlı, Həsən Mürşüdzadə, Abbas Məmmədli, İbrahim Rza (hamısı "Qarabağ"), Yavər Əsgərli, Xəzər Hüseynzadə, Həsən Məhmədov, Həsən Ramazanov (hamısı "Sabah"), Daniil Bayramari ("Qəbələ"), Harun Əliyev, Emil Quliyev, Kənan Əzimov, Sübhan Əlizadə, Qafar Babayev (hamısı "Neftçi"), Yusif Kərimli, Nihat Bəylərli, Murad Zeynallı, Rəsul Qurbanlı (hamısı "Ulduz"), Murad Məmmədov ("Sumqayıt"), Amin Tağıyev ("Turan Tovuz")

# Samir Abasov dörd oyunluq cəzalandı



***"Neftçi" komandasının baş məşqçisi Samir Abasov dörd oyunluq cəza alıb.***

"Unikal" xəbər verir ki, bu barədə AFFA İntizam Komitəsi qərar çıxarıb.

Mütəxəsəssi "Qarabağ"a 0:2 hesabı ilə uduzduqları Misli Premyer Liqasının XI turunun oyunundan sonra hakimi təhqir etdiyi üçün bu cəza ilə üzləşib.

Paytaxt klubu buna görə 10000 manat cərimələnib.

# Azərbaycanın boks millisi Polşa ilə yoldaşlıq görüşü keçirəcək




***Kişi boksçulardan ibarət Azərbaycan millisi Polşaya yollanıb.***

Boks Federasiyasından bildirilib ki, komanda noyabrın 15-də Krakovda boks gecəsinə qatılacaq.

Boksçular Polşada yerli yığma ilə yoldaşlıq görüşünə çıxacaq. Məşqçilər Etibar Abdullayevlə Ceyhun Əbiyev döyüşlərdə Nicat Hüseynov, Kənan Babayev (hər ikisi 55 kiloqram), Məhəmmədəli Aşurəliyev (60 kiloqram), Malik Həsənov (65 kiloqram), Mehdi Həsənov (70 kiloqram), Şəmsi Şahbazov (75 kiloqram), Surət Qarayev (85 kiloqram), Alfonso Dominqes (90 kiloqram) və Məhəmməd Abdullayevə (+90 kiloqram) şans verəcəklər.

Qeyd edək ki, millimiz Bakıya noyabrın 18-də qayıdacaq.

# "Milan"ın gözü 18 yaşlı hücumçuda



***"Milan"ın qış transfer pəncərəsi üçün hədəflərindən biri müəyyənləşib.***

QOL.az xəbər verir ki, bu barədə insayder Nikolo Şkira məlumat yayıb.

A seriyası təmsilçisi "Renn"in gənc hücumçusu Mohamed Kader Meyteni izləyir. "Milan" hətta 18 yaşlı futbolçu üçün Fransaya skautlar da göndərib.

Mohamed Kader Meyte "Renn"in əsas komandası ilə 24 matçda 4 qol vurub və 2 məhsuldar ötürmə verib. O, cari mösümdə 11 oyunda 2 dəfə fərqlənib.

# "Sabah"ın hücumçusu İspaniyada əməliyyat olundu



***"Sabah"ın aparıcı hücumçusu Pavol Şafranko diz oynağındakı menisk yırtığı səbəbindən əməliyyat olunub.***

"Unikal" xəbər verir ki, bu barədə klubun rəsmi saytı məlumat yayıb.

İspaniyadakı klinikalardan birində baş tutan əməliyyat uğurla yekunlaşıb.